**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

29 avqust 2026-cı il №32 (9185) www.muallim.edu.az muallim@media.edu.az

# AZƏRBAYCAN-ÖZBƏKİSTAN:

## Əbədi qardaşlıq, strateji əməkdaşlıq

### Prezident İlham Əliyev

Əlbəttə, bu yüksək mükafatı alarkən Özbəkistan Prezidenti Şavkat Miromonoviç Mirziyoyevin ikitərəfli münasibətlərimizin möhkəmlənməsindəki xüsusi rolunu, xalqımıza qarşı səmimi münasibətini və Qarabağın bərpasında göstərdiyi köməyi qeyd etmək istərdim. Mən bu gün artıq bu barədə danışdım və Azərbaycanda hamı bilir ki, dünyada Qarabağın bərpasında bizə ilk kömək edən Prezident, ilk ölkə Prezident Mirziyoyev və Özbəkistandır.

Qardaşlığa və müttəfiqliyə əsaslanan ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsinə verdiyi böyük töhfəyə görə Şavkat Miromonoviç Mirziyoyevi Azərbaycanın ən ali ordeni - "Heydər Əliyev" ordeni ilə təltif etmək haqqında Sərəncam imzaladım.



### Prezident Şavkat Mirziyoyev

Hörmətli İlham Heydər oğlu, Azərbaycan Sizin rəhbərliyiniz ilə ölkənin inkişafında və beynəlxalq arenada böyük uğurlar qazanır. Yaxın dost, yaxın qonşu və müttəfiq olaraq, biz həmişə bu nəticələrə sevinirik. Siz ölkənin ərazi bütövlüyünü bərpa etməklə bir daha xalqınızı birləşdirdiniz. Siz dahi atanız, hörmətli Heydər Əliyevin işini layiqincə davam etdirirsiniz, onun müdrik vəsiyyətlərini, arzularını və istəklərini ardıcıl olaraq həyata keçirirsiniz.

Bu gün ölkəmizin əsl dostu olan Sizə bu nüfuzlu mükafatı - ən yüksək dərəcəli "Dostluq" ordenini təqdim etməkdən xüsusilə məmnunam. Bu, Özbəkistanla Azərbaycan arasında əbədi dostluq, strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsinə Sizin verdiyiniz böyük töhfəyə hörmətin və minnətdarlığın rəmzidir.

## Daşkənddə Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin açılışı olub

*Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev açılış mərasimində iştirak ediblər*

Bax səh.2



## Bakının Nəsimi rayonunda yeni körpələr evi-uşaq bağçası istifadəyə verilib



Birinci vitse-prezident Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva açılış mərasimində iştirak ediblər

Bax səh.2

## Azərbaycan və Türkiyənin ali təhsil əməkdaşlığında yeni mərhələ



Azərbaycan və Türkiyə arasında ali təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində növbəti mühüm addım atılıb. Qarabağ Universiteti ilə İstanbul Texniki Universiteti (İTU) arasında mühəndislik istiqaməti üzrə tədris, təlim və elmi-tədqiqat fəaliyyətlərinin təşkili, eləcə də müvafiq təhsil infrastrukturunun yaradılması nəzərdə tutulur.

Bax səh.3

## Universitetə qəbul olan şəhid anası



"Qızlarımıza, qadınlarımıza örnək olmaq lazımdır. Qızlarımızın təhsili vacibdir. Mənim hər zaman şüarım olub: qızlarımızı təhsilsiz, yaxud sənətsiz evdən çıxarmayın. Cehiz yerinə onlara diplom, sənəd verin. Mənim şəhid anası kimi ali məktəbə qəbul olmağım da şəhid, qazi ailələrinə, Azərbaycan xanımlarına bir stimul olsun. Oxumaq heç zaman gec deyil".

Bax səh.4

## Təbiət qoynunda rəqəmlər necə koda çevrildi?




Dağların qoynunda, təbiətlə iç-içə, Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının ərazisində böyük bir düşərgə salınıb. Çadırlar qurulub, ali, orta ixtisas və peşə təhsili müəssisələrinin tələbə və məzunları olan 250-yə yaxın gənc bir araya gəlib. Gənclər məsuliyyəti də bölüşüblər, işləri də. Hərə öz dünyasından bir rəng qatıb təbiətin yaşılın ayrı-ayrı çalarlarında olan rənglərinə.

Bax səh.8

## "Xaricdə təhsil etimad və məsuliyyətdir"

Bax səh.4

## Bu dərsliklər yenilənib

Bax səh.5

## Regionlarda sentyabr konfransları keçirilir

Bax səh.5

## "Müəllimlərimizə etibar çox vacibdir"

Bax səh.6

# Daşkənddə Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin açılışı olub

## *Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev açılış mərasimində iştirak ediblər*









**Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Daşkənddə Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin açılış mərasimində iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlət başçıları əvvəlcə ali təhsil ocağının rəmzi açılışını bildirən lenti kəsdilər.

Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev universitetin həyətində ağac əkdilər.

Azərbaycanın və Özbəkistanın dövlət başçılarına Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin tarixi və yaradılmış şərait barədə məlumat verildi.

1935-ci ildə Mərkəzi Asiya Dövlət Universitetinin Pedaqoji fakültəsinin bazasında Daşkənd Pedaqoji İnstitutu yaradılıb. 1947-ci ildə təhsil müəssisəsinin adı Nizami adına Daşkənd Dövlət Pedaqoji İnstitutu olaraq dəyişdirilib, 1998-ci ildən isə institut Nizami adına Daşkənd Dövlət Pedaqoji Universiteti kimi fəaliyyətini davam etdirib.

Universitetin məzunları arasında Özbəkistanın ədəbiyyatının, mədəniyyətinin, elminin və ictimai həyatının inkişafına mühüm töhfələr vermiş çoxsaylı görkəmli şəxsiyyətlər var.

Universitetin strukturunda 6 ali pedaqoji məktəb, həmçinin 1 Birgə Təhsil Ali Məktəbi və 1 magistratura şöbəsi fəaliyyət göstərir. Burada, ümumilikdə, 33 kafedra var. Universitetdə bakalavriat üzrə 38, magistratura üzrə isə 31 ixtisasda kadrlar hazırlanır. 730 müəllim və elmi-pedaqoji işçinin çalışdığı universitetdə 17 mindən çox tələbə, o cümlədən 6 Azərbaycan vətəndaşı olan tələbə, magistrant və müstəqil tədqiqatçı kimi təhsil alır. Eyni zamanda, burada dünyanın 13 ölkəsindən 250 nəfər təhsilini davam etdirir.

Universitetdə beynəlxalq təhsil proqramlarının tətbiqinə də xüsusi yer ayrılır. Təhsil ocağı dünyanın 20 ölkəsindən 15 beynəlxalq təhsil təşkilatı və 127 universitetlə, həmçinin UNESCO və UNICEF ilə sıx əməkdaşlıq qurub. Burada 12 birgə təhsil proqramı həyata keçirilir. Həmçinin 4 beynəlxalq təhsil və mədəniyyət mərkəzi - Azərbaycan, Qazaxıstan, Cənubi Koreya və Çin mərkəzləri fəaliyyət göstərir.

Nizami Gəncəvi adına Milli Pedaqoji Universitet Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Slavyan Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Mingəçevir Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə anlaşma memorandumları imzalayıb. Bu əməkdaşlıq çərçivəsində birgə elmi tədqiqatlar və beynəlxalq konfranslar, təhsil və elmi təcrübə mübadiləsi, həmçinin mədəni-maarif əlaqələri inkişaf etdirilir. Ölkəmizlə əməkdaşlıq çərçivəsində Füzuli şəhərindəki Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin ilk 5 məzunu qrant əsasında bu universitetdə təhsil almaq hüququ qazanıb.

"Yeni Daşkənd" ərazisində 40 hektar sahədə universitetin yeni kampusunun tikintisi həyata keçirilir. Layihə, ümumilikdə, 20 min nəfərlik tədris korpuslarının, həmçinin 5 min nəfərlik tələbə yataqxanalarının yaradılmasını nəzərdə tutur. Yeni kampusda Nizami Gəncəvi Muzeyi və universitetin tarix muzeyləri olacaq.

Dövlət başçıları burada təhsil ocağının müəllim və tələbə heyəti ilə görüşüb, onlarla söhbət etdilər.

Görüşdə Füzuli şəhərindəki Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin Azərbaycan—Özbəkistan qardaşlığının rəmzi olduğu, universitetin yeni binasının isə iki ölkəni birləşdirən qədim və müasir dəyərləri, həmçinin xalqlarımızın birliyini əks etdirdiyi vurğulanıb.

Bildirilib ki, Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin fəaliyyətə başlamasından ötən üç il ərzində Azərbaycan və Özbəkistan şagirdləri arasında dostluq və əməkdaşlıq əlaqələri daha da inkişaf edib. Bu çərçivədə məktəbin müəllimləri Daşkənddə XXI əsr müəllimi üçün zəruri olan istiqamətlər üzrə təlimlərdə iştirak edirlər. Diqqətə çatdırılıb ki, məktəbin məzunlarının 20 faizi Daşkənddəki Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetə qəbul olunub.

Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin direktoru Həcər Mahmudova Azərbaycan—Özbəkistan qardaşlığının və təhsil sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə göstərdikləri dəstəyə görə prezidentlər İlham Əliyevə və Şavkat Mirziyoyevə minnətdarlığını ifadə etdi.

# Bakının Nəsimi rayonunda yeni körpələr evi-uşaq bağçası istifadəyə verilib

## *Birinci vitse-prezident Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva açılış mərasimində iştirak ediblər*









**Avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Bakının Nəsimi rayonunda 352 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov körpələr evi-uşaq bağçasında görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 116 yerlik uşaq bağçası kimi istifadəyə verilən müəssisə 1972-ci ildən eşitmə qabiliyyəti pozulmuş uşaqların respublika ixtisaslaşdırılmış körpələr evi-uşaq bağçası kimi fəaliyyət göstərib. Hazırda isə 352 saylı körpələr evi-uşaq bağçası kimi fəaliyyətini davam etdirir.

Heydər Əliyev Fondunun dəstəyi ilə binada əsaslı təmir işləri aparılıb və yeni korpus inşa olunub.

Yeni körpələr evi-uşaq bağçasında eşitmə qabiliyyəti pozulmuş uşaqlar üçün xüsusi qrup saxlanılmaqla, uşaqların məktəbəqədər təhsil və tərbiyə almalarına hər cür şərait yaradılıb. Eşitmə qabiliyyəti pozulmuş uşaqlar üçün burada 36 yerlik ikimərtəbəli əlavə korpus inşa olunub.

Körpələr evi-uşaq bağçasında surdoloq, oyun və yataq otaqları, idman, tədbir, musiqi və rəqs zalları, tibb, geyinib-soyunma və müəllimlər otaqları var. Surdoloq kabinetləri, dərs, oyun otaqları zəruri avadanlıqlar və mebellərlə təmin olunub.

Uşaqlar üçün açıq havada oyun və idman meydançaları salınıb, söhbətgahlar quraşdırılıb.

# Elm və təhsil naziri Xankəndidə vətəndaşları qəbul edib







Avqustun 28-də elm və təhsil naziri Emin Əmrullayev Xankəndi şəhərində vətəndaş qəbulu keçirib. Qəbulda Xankəndi, Xocalı və Ağdərə sakinləri iştirak ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

# Azərbaycan və Türkiyənin ali təhsil əməkdaşlığında yeni mərhələ



Azərbaycan və Türkiyə arasında ali təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində növbəti mühüm addım atılıb. Qarabağ Universiteti ilə İstanbul Texniki Universiteti (İTU) arasında mühəndislik istiqaməti üzrə tədris, təlim və elmi-tədqiqat fəaliyyətlərinin təşkili, eləcə də müvafiq təhsil infrastrukturunun yaradılması nəzərdə tutulur. Bununla əlaqədar, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan "İstanbul Texniki Universitetinin Rektorluğuna bağlı olaraq Azərbaycan Respublikasının Qarabağ Universitetinin nəzdində akademik bölmələrin açılması haqqında" 27 avqust 2026-cı il tarixli 11647 nömrəli Qərarı imzalayıb.

İTU-nun mühəndislik sahəsində zəngin akademik və elmi potensialının Qarabağ Universiteti ilə əlaqələndirilməsi müasir tədris və tədqiqat imkanlarının genişləndirilməsinə, yüksəkixtisaslı mühəndis kadrlarının hazırlanmasına və birgə elmi fəaliyyətin inkişafına şərait yaradacaq.

Əməkdaşlıq çərçivəsində ikili diplom proqramlarının yaradılması, tələbə və professor-müəllim heyətinin mübadiləsi, birgə elmi-tədqiqat layihələrinin icrası və mühəndislik istiqamətində infrastrukturun yaradılması nəzərdə tutulub.

Qeyd edək ki, bu təşəbbüs Azərbaycan-Türkiyə qardaşlığının elm və ali təhsil sahəsində institusional əməkdaşlıqla daha da möhkəmləndirilməsinin, iki ölkənin akademik və elmi potensialının Qarabağın bərpası və gələcək inkişafına yönəldilməsinin növbəti mühüm nümunəsidir.

# Elm və təhsil naziri Yardımlıda vətəndaşları qəbul edəcək

Elm və təhsil naziri Emin Əmrullayev sentyabrın 18-də Yardımlı şəhərində vətəndaşları qəbul edəcək. Qəbulda Yardımlı, Masallı və Cəlilabad sakinləri iştirak edə bilərlər. Adları çəkilən şəhər və rayonların sakinləri 8 sentyabr (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 11 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının https://edu.gov.az/az/contact_us bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə "WhatsApp" vasitəsilə müraciət göndərmək mümkündür. Nəzərinizə çatdırırıq ki, qəbulda iştirak üçün qeydiyyat mütləqdir.




# Gənclərin inkişafı real iş mühitində formalaşan təcrübə və bacarıqları ilə tamamlanmalıdır

## Elm və təhsil naziri "Maarifçi"lərlə görüşüb




**Elm və təhsil naziri Emin Əmrullayev IV "Maarifçi" tələbə-məzun proqramının iştirakçıları ilə görüşüb.**





Proqram iştirakçılarını salamlayan elm və təhsil naziri "Maarifçi" tələbə-məzun proqramının gənclərin elm və təhsil sahəsində həyata keçirilən prosesləri yaxından tanımaları, real iş mühitində praktiki təcrübə qazanmaları və peşəkar inkişaf etmələri baxımından əhəmiyyətini vurğulayıb.

Nazir qeyd edib ki, gənclərin inkişafı yalnız nəzəri biliklərin əldə olunması ilə məhdudlaşmamalı, onların real iş mühitində formalaşan təcrübə və bacarıqları ilə tamamlanmalıdır. Bu baxımdan "Maarifçi" proqramının iştirakçılara həm müxtəlif istiqamətlər üzrə təcrübə qazanmaq, həm də elm və təhsil sahəsində çalışan mütəxəssislərlə birbaşa ünsiyyət qurmaq imkanı yaratdığını bildirib.

Emin Əmrullayev gənclərə proqram müddətində əldə etdikləri bilik və təcrübədən yararlanmağı tövsiyə edib.

Görüşdə "Maarifçi"lərin təhsil sistemi ilə bağlı sualları cavablandırılıb, prioritet məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Emin Əmrullayev müasir dövrün tələbləri, dəyişən əmək bazarı, gənclərin gələcək karyera istiqamətlərini düzgün müəyyənləşdirməsi və ixtisas seçiminə məsuliyyətlə yanaşmasının əhəmiyyəti barədə danışıb. Nazir, həmçinin gənclərin elm və təhsil sistemində fəal iştirakı, onların bilik və bacarıqlarının gələcək inkişaf üçün əhəmiyyətini vurğulayıb.

Xatırladaq ki, "Maarifçi" tələbə-məzun proqramı Elm və Təhsil Nazirliyinin təşəbbüsü, Təhsilin İnkişafı Fondunun dəstəyi ilə 2024-cü ildən həyata keçirilir. İndiyədək proqramdan 102 gənc məzun olub. IV tələbə-məzun proqramında isə 53 nəfər Elm və Təhsil Nazirliyinin struktur bölmələri və tabeli qurumlarında, regional təhsil idarələrində, həmçinin Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyində təcrübə keçmək imkanı qazanıb.

# Xarici işlər nazirinin müavini "Maarifçi"lərlə görüşüb

**Avqustun 25-də IV "Maarifçi" tələbə-məzun proqramı çərçivəsində xarici işlər nazirinin müavini Yalçın Rəfiyev proqram iştirakçıları ilə görüşüb.**



Xarici İşlər Nazirliyində keçirilən görüşdə Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli, nazirliyin məsul əməkdaşları, eləcə də proqramın əvvəlki illərdə uğur qazanmış məzunları və hazırkı iştirakçıları iştirak ediblər.

Görüş zamanı Yalçın Rəfiyev Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri, onun formalaşmasına təsir edən amillər və qərarların qəbul edilməsi mexanizmləri barədə fikirlərini bölüşüb. Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövqeyi, beynəlxalq tərəfdaşlıqlarının genişləndirilməsi istiqamətində həyata keçirilən fəaliyyət və xarici siyasətin müəyyənləşdirilməsində mühüm rol oynayan amillər diqqətə çatdırılıb.

Müzakirələr zamanı, həmçinin güclü dövlət anlayışı və onun əsas meyarları ətrafında fikir mübadiləsi aparılıb. Dövlətin gücünü şərtləndirən iqtisadi və hərbi potensial, bu amillərin zamanla dəyişməsi, eləcə də dövlətin beynəlxalq mövqeyinin möhkəmləndirilməsinə təsir edən digər amillər barədə danışılıb.

Görüşdə iştirakçıların xarici siyasətin prioritetləri, dövlət qərarlarının qəbulu, beynəlxalq proseslərin ölkələrin inkişafına təsiri və diplomatik fəaliyyətin xüsusiyyətləri ilə bağlı sualları cavablandırılıb.

Müzakirələrdə gənclərin dövlət idarəçiliyində fəal iştirakının, beynəlxalq proseslərə dair biliklərinin, analitik düşüncə və peşəkar bacarıqlarının inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb. Müxtəlif dövlət qurumları arasında əməkdaşlığın gənclərin inkişafı üçün yaratdığı imkanlar və "Maarifçi" proqramının bu istiqamətdə rolu barədə fikir mübadiləsi aparılıb.

# UĞUR HEKAYƏLƏRİ

**Müxtəlif beynəlxalq layihələrdə Azərbaycanı təmsil edən, dövlət qurumlarında və irimiqyaslı beynəlxalq tədbirlərdə peşəkar təcrübə qazanan Jasmin Abdulkərimova 2026—2027-ci tədris ilində "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022—2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində Avstraliyanın nüfuzlu "The Australian National University" (ANU) ali təhsil müəssisəsində "Public Policy" ixtisası üzrə magistr təhsili alacaq. "Azərbaycan müəllimi" Jasmin Abdulkərimovanın uğur hekayəsini dinləyib.**



## DÖVLƏT PROQRAMI TƏQAÜDÇÜSÜ

# "XARİCDƏ TƏHSİL ETİMAD VƏ MƏSULİYYƏTDİR"

## "Bilik və təcrübəmi gələcəkdə Azərbaycanda tətbiq etmək istəyirəm"

### "Uşaqlıqdan dünyanı tanımaq mənim üçün çox maraqlı olub"

Dünyanı tanımaq və daim yeni məlumatlar öyrənmək marağı uşaqlıq illərindən formalaşıb: "Uşaqlıqdan dünyanı tanımaq mənim üçün çox maraqlı olub və bunun ən gözəl yolu kitablar idi. Deyərdim ki, təhsilə və daim nəsə öyrənməyə marağım da elə oradan yaranıb".

O, 2020-ci ildə Mingəçevir şəhəri 20 nömrəli tam orta məktəbi fərqlənmə ilə bitirib. Həmin il yüksək balla Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər" ixtisasına qəbul olub. Jasmin üçün ali təhsil yalnız auditoriyada əldə olunan biliklərlə məhdudlaşmayıb. Ali təhsil illərində müxtəlif beynəlxalq layihələrdə fəal iştirak edən gənc Fransa, Macarıstan və Gürcüstanda keçirilən proqramlarda Azərbaycanı təmsil edib.

Onun fikrincə, həmin layihələrdə qazandığı təcrübə sonrakı fəaliyyətində mühüm rol oynayıb: "Bu layihələr mənə müxtəlif ölkələrdən olan gənclərlə işləmək, fərqli mədəniyyətləri yaxından tanımaq və beynəlxalq mühitdə komanda ilə çalışmaq bacarığımı inkişaf etdirmək imkanı yaradıb".

### Ötənilki uğursuz müsahibə builki qələbəyə yol açdı

Jasminin xaricdə təhsil arzusu yeni deyil. O, ötən il də Dövlət Proqramına müraciət edib, lakin müsahibə mərhələsində uğur qazana bilməyib: "Əslində, ötən il müsahibəmin uğursuz olması mənə çox şey öyrətdi. O zaman da xaricdə oxumaq istəyim var idi, amma düşünürəm ki, bu istəyimi və gələcək planlarımı bu qədər konkret ifadə edə bilmirdim".

Növbəti bir il ərzində öz üzərində daha çox işləyən Jasmin gələcək məqsədlərini dəqiqləşdirib, seçdiyi istiqamət, universitet və proqram barədə daha geniş araşdırmalar aparıb. Eyni zamanda müsahibəyə daha sistemli hazırlaşıb: "Bu dəfə daha konkret və ciddi məqsədləri və gələcək fəaliyyət planı olan bir namizəd kimi qatıldım. Düşünürəm ki, ən böyük dəyişiklik də bu il məqsədlərimi daha yaxşı bilməyim və daha çox inanmağım oldu".

Bu il Jasmin üçün daha bir mühüm nəticə də onun eyni vaxtda üç fərqli təqaüd imkanını qazanması olub. Dövlət Proqramı ilə yanaşı, İtaliya Xarici İşlər Nazirliyinin tam maliyyələşdirdiyi "Invest Your Talent in Italy" təqaüd proqramını və İtaliya dövlət universitetlərindən birinin daxili "Excellence" təqaüdünü də qazanıb.

Lakin bütün imkanları müqayisə etdikdən sonra seçimini Dövlət Proqramının üzərində saxlayıb: "Qərar verərkən təqaüdlərin yalnız təqdim etdiyi maddi imkanları deyil, təhsil və təqaüd proqramlarının məzmununu və məni gələcəkdə hansı istiqamətə aparacağını müqayisə etdim. Bu müqayisə nəticəsində "The Australian National University"də "Public Policy" üzrə təhsilin mənim gələcək karyera planlarıma daha çox uyğun olduğunu gördüm".

Jasmin üçün Dövlət Proqramının əhəmiyyəti yalnız dünyanın nüfuzlu universitetlərindən birində təhsil almaq imkanı ilə məhdudlaşmır. "Bu proqram mənim üçün xaricdə təhsil almağımı maliyyələşdirən bir imkan olmaqdan əlavə, dövlətimin mənə göstərdiyi etimad və bunun yaratdığı məsuliyyətdir. Xaricdə təhsil almağımın əsas məqsədi sadəcə başqa ölkədə yaşamaq və diplom əldə etmək deyil. Orada qazandığım bilik və təcrübəni gələcəkdə Azərbaycanda tətbiq etmək istəyirəm".

Onun əsas maraq istiqamətlərindən biri rəqəmsal dövlət siyasətidir. Gənc mütəxəssis Azərbaycanda rəqəmsal transformasiya, elektron dövlət xidmətlərinin vahidləşdirilməsi və rəqəmsal hökumətə keçid istiqamətində görülən işlərin bu sahəyə marağını artırdığını bildirir: "Avstraliya rəqəmsal dövlət sahəsində qabaqcıl ölkələrdən biridir. Bu da mənim üçün ölkə seçimində və öyrənmək istədiyim sahələrin müəyyənləşdirilməsində vacib amillərdən biri olub. Təhsil müddətində rəqəmsal transformasiya, süni intellekt və cəmiyyət, həmçinin rəqəmsal dövlət siyasəti ilə bağlı fənlər götürməyi planlaşdırıram. Xüsusilə süni intellektin dövlət idarəçiliyinə və ictimai xidmətlərə necə inteqrasiya oluna biləcəyi mənim üçün maraqlıdır".

### "Uğur insanın özünün ən yaxşı versiyasına çevrilməsidir"

Jasmin üçün uğur yalnız konkret nəticə və ya əldə olunan titul deyil. Onun fikrincə, uğurun ölçüsü insanın qarşısına qoyduğu məqsədə çatması və daim özünü inkişaf etdirməsidir: "Uğur insanın özünün ən yaxşı versiyasına çevrilməsidir. Başqaları ilə yarışaraq deyil, dünənki özü ilə müqayisədə hər gün bir addım irəliləməkdir. Kiçik də olsa, ardıcıl və nizamlı addımlar atmaq, maneələr qarşısında təslim olmamaq və məqsədinə çatana qədər yoluna davam etməkdir.

Qazandığım uğurların arxasında çox zəhmət dayanıb. Uğur qazanmaq üçün həmişə çalışaraq "Bunu necə daha yaxşı edə bilərəm?" və "Nə dəyişiklik etsəm daha yaxşı olar?" suallarını vermişəm".

O, hesab edir ki, qlobal rəqabət mühitində gənclərin ən vacib xüsusiyyətlərindən biri özləri üçün imkan yarada bilmələridir: "Çox vaxt həmin fürsətə özümüz çatmalı, araşdırmalı, müraciət etməli, yeni əlaqələr qurmalı və nəticə əldə edənədək dəfələrlə cəhd göstərməliyik".

Dövlət Proqramına müraciət etməyi düşünən gənclərə isə o, üç əsas məqamı tövsiyə edir: "Müraciət prosesinə gec başlamamaq çox vacibdir. Universitetlərin, təqaüdlərin qəbul tələblərinin və Dövlət Proqramının şərtlərinin əvvəlcədən araşdırılması həm vaxt itkisini, həm də stresi azaldır".

**Jasminin fikrincə, universitet seçərkən yalnız reytinq və prestijə deyil, proqramın məzmununa, fənlərə, müəllimlərin tədqiqat istiqamətlərinə və məzun olduqdan sonra yaranacaq imkanlara da diqqət yetirmək lazımdır: "Müsahibədə "Niyə məhz bu universitet və bu proqram?" sualına ümumi deyil, əsaslandırılmış cavab verə bilmək gözlənilir. Şəxsi təcrübəni konkret nümunələrlə səmimi şəkildə ifadə etmək daha vacibdir".**

**Jasmin Abdulkərimova üçün bu uğurun ən maraqlı tərəflərindən biri də yolun haradan başladığıdır. O, Mingəçevirdəki məktəb illərində gələcəkdə Avstraliyanın nüfuzlu universitetlərindən birində təhsil alacağını təsəvvür etməyib: "Amma açığı, Mingəçevirdəki kiçik bir şəhər məktəbini bitirən 17 yaşlı Jasmin bugünkü məni təsəvvür etmirdi, məncə. O vaxt gələcəyimin bu istiqamətdə olacağını, xaricdə təhsil alacağımı və belə imkanlar əldə edəcəyimi planlaşdırmamışdım".**

**Firuzə CÜMŞÜD,**
**Gəncə-Daşkəsən və Qazax-Tovuz üzrə regional təmsilçi**

# O mehriban, o əziz tələbəlik illəri

## "Oxumaq heç zaman gec deyil"



### Universitetə qəbul olan şəhid anası

Ali məktəblərə tələbə qəbulunun nəticələri açıqlanıb. Ali məktəbə qəbul olaraq tələbə adını qazananlar arasında şəhid Xalid Həsənin anası Maya Quliyeva da var.

"Azərbaycan müəllimi" bu münasibətlə Maya Quliyeva ilə həmsöhbət olub. Daha əvvəl kollec və universitet təhsili aldığını deyən Maya Quliyevanın sözlərinə görə, ali təhsilini Almatıda alıb: "Ərəb dili üzrə tərcüməçilik ixtisasını bitirmişəm. Sonra Ağdam Dövlət Sosial İqtisadi Kollecini fərqlənmə ilə bitirdim və bu il də Azərbaycan Dövlət Aqrar Universitetinə qəbul oldum. Buna görə çox sevincliyəm".

Müsahibimiz təhsilini davam etdirməsini qadınlara örnək olmaq istəyi ilə əlaqələndirib:

"Qızlarımıza, qadınlarımıza örnək olmaq lazımdır. Qızlarımızın təhsili vacibdir. Mənim hər zaman şüarım olub: qızlarımızı təhsilsiz, yaxud sənətsiz evdən çıxarmayın. Cehiz yerinə onlara diplom, sənəd verin. Mənim şəhid anası kimi ali məktəbə qəbul olmağım da şəhid, qazi ailələrinə, Azərbaycan xanımlarına bir stimul olsun. Oxumaq heç zaman gec deyil".

Qeyd edək ki, Xalid Mahmud oğlu Hassan 26 yanvar 1995-ci ildə Sumqayıt şəhərində anadan olub. Atası Mahmud Hassan əslən Misirdən, anası Maya Quliyeva isə Ağdam rayonundandır.

Xalid Hassan Vətən müharibəsi zamanı - 4 noyabr 2020-ci ildə Kəlbəcər-Şuşa yolu istiqamətində, Ağdərə ərazisində şəhid olub.

O, ölümündən sonra Azərbaycan Prezidentinin Sərəncamı ilə III dərəcəli "Vətənə xidmətə görə" ordeni və digər medallarla təltif edilib.

## Azərbaycanın ən yaşlı tələbəsi: "Universitet tələbəsi olmaq uşaqlıq arzum idi"



Azərbaycanın bu il ali məktəbə qəbul olan ən yaşlı tələbəsi 1968-ci il təvəllüdlü Elbrus Hüseynov olub. Ali məktəbə subbakalavr kimi qəbul olan 58 yaşlı E.Hüseynov Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Kommunikasiya sistemləri mühəndisliyi" ixtisası üzrə əyani, dövlət sifarişi əsasında təhsil alacaq. "Azərbaycan müəllimi" bu münasibətlə E.Hüseynovla həmsöhbət olub. Müsahibimiz bildirib ki, universitet tələbəsi olmaq uşaqlıq arzusu olub: "Qismət bu il tələbə adını qazanmaq imiş. Daha əvvəl kolleci bitirmişəm, hazırda da mühəndis kimi fəaliyyət göstərirəm". Müsahibimiz tələbəliyin onun üçün çətin olmayacağını bildirib: "Mənim üçün çətin olacağını düşünmürəm. İnsan hər şeyə qadirdir. Tələbəlik müddətimdə universitetdə könüllülük fəaliyyətləri və digər proqramlarda da iştirak etməyi düşünürəm".

**Rəşid QARAYEV**

Sumqayıt şəhər Təbiət elmləri təmayüllü gimnaziyanın 11 "a" sinfində təhsil alan bacı-qardaş Mursaquliyeva İnci və Mursaquliyev Həmid bu il yüksək nəticə göstərərək tələbə adını qazanıblar. Bu barədə "Azərbaycan müəllimi"nə Abşeron-Xızı Regional Təhsil İdarəsindən məlumat verilib. Bacı-qardaş olmaqla yanaşı, sinif yoldaşı olan İnci və Həmid eyni ildə Azərbaycan Tibb Universitetinin "Tibb" fakültəsinə qəbul olunublar. Qəbul imtahanında Mursaquliyeva İnci 690,2 bal, Mursaquliyev Həmid isə 667 bal toplayıb.

**Mərziyyə KAZIMZADƏ**



### 690,2 və 667 bal: Sinif yoldaşı olan bacı-qardaş indi də qrup yoldaşı oldu

## Peşə təhsili alan 90 məzun ali məktəbə qəbul olub




Yüksək texniki peşə təhsilini başa vuran 90 məzun ali məktəbə qəbulun I mərhələsində uğur qazanıb. Peşə Təhsili üzrə Dövlət Agentliyindən "Azərbaycan müəllimi"nə verilən məlumata görə, məzunların seçdiyi universitetlər arasında Bakı Mühəndislik Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Mingəçevir Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti və Xəzər Universiteti yer alır. Seçilən ixtisas istiqamətləri isə turizm, baytarlıq, memarlıq, mühasibat uçotu, nəqliyyat mühəndisliyi, interyer dizayn, mehmanxana və restoran işi və digər sahələri əhatə edir.

# Bu dərsliklər yenilənib

## Şagirdləri yeni məzmun gözləyir




**Yeni tədris ili üzrə IV siniflər üçün "Həyat bilgisi", VII siniflər üçün "Azərbaycan dili" "Riyaziyyat", "İngilis dili", "Azərbaycan tarixi", VIII siniflər üçün "Coğrafiya", IX siniflər üçün "Biologiya", "Fizika" və digər dərsliklər yenilənmiş məzmunda tədris prosesində istifadə olunacaq.**




Elm və Təhsil Nazirliyindən "Azərbaycan müəllimi"nin sorğusuna cavab olaraq bildirilib ki, 2026—2027-ci tədris ili üçün yenilənmiş dərsliklər "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları"na, həmin Standartlar əsasında hazırlanmış fənn kurikulumlarına, müasir pedaqoji yanaşmalara və beynəlxalq qiymətləndirmə tədqiqatlarının (PISA, TIMSS və s.) çərçivələrinə uyğun hazırlanıb.

Yenilənmiş dərsliklərin hazırlanmasında əsas məqsəd şagirdlərdə yalnız nəzəri biliklərin formalaşdırılması deyil, eyni zamanda həmin biliklərin real həyat situasiyalarında tətbiqi, problemhəlletmə, tədqiqat aparma, tənqidi və yaradıcı düşünmə bacarıqlarının inkişaf etdirilməsidir.

Eyni zamanda yeni nəşrlərdə oxu, riyazi və elmi savadlılığın inkişafına xidmət edən tapşırıqların sayı artırılmış, maliyyə savadlılığı, ekoloji məsuliyyət, rəqəmsal bacarıqlar, media və informasiya savadlılığı, kibertəhlükəsizlik kimi müasir və aktual məlumatlar məzmuna daha sistemli şəkildə inteqrasiya edilib.

Qeyd edilməlidir ki, dərsliklərin yenilənməsi prosesi ayrı-ayrı mövzuların mexaniki şəkildə çıxarılması və ya əlavə edilməsi prinsipi əsasında deyil, fənn kurikulumlarının tələblərinə uyğun olaraq məzmunun təkmilləşdirilməsi və optimallaşdırılması yolu ilə həyata keçirilir.

### Digər dillərdə təhsil alan VII siniflər "Azərbaycan tarixi"ni Azərbaycan dilində keçəcəklər

2026—2027-ci tədris ilindən etibarən tədrisi digər dillərdə aparılan ümumi təhsil müəssisələrinin VII siniflərində "Azərbaycan tarixi" fənni Azərbaycan dilində tədris olunacaq.

Elm və Təhsil Nazirliyindən "Azərbaycan müəllimi"nin sorğusuna cavab olaraq bildirilib ki, bu yanaşmanın növbəti illərdə mərhələli şəkildə yuxarı siniflərə də tətbiqi planlaşdırılır.

Nazirlikdən, həmçinin qeyd olunub ki, hazırda hər hansı dərsliyin yaxın illərdə tədris vəsaitləri sırasından çıxarılması ilə bağlı qərar qəbul edilməyib.

# Regionlarda sentyabr konfransları keçirilir

**Xankəndi şəhərində yeni tədris ilinin başlanması ilə əlaqədar təhsil işçilərinin sentyabr konfransı keçirilib. "Azərbaycan müəllimi" xəbər verir ki, Xankəndi şəhər N.Gəncəvi adına 4 nömrəli tam orta ümumtəhsil məktəbində təşkil olunan konfransda Qarabağ Regional Təhsil İdarəsinin müdir müavini Ruslan Rzayev, Xankəndi şəhər və Xocalı rayonları üzrə təhsil sektorunun müdiri Rizvan Ələsgərov, sektorun əməkdaşları, təhsil müəssisələrinin rəhbərləri, direktor müavinləri və qabaqcıl müəllimlər iştirak ediblər.**



Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda çıxış edən Qarabağ Regional Təhsil İdarəsinin müdir müavini Ruslan Rzayev təhsil işçilərini yeni tədris ilinin başlanması münasibətilə təbrik edib, onlara məsuliyyətli və şərəfli fəaliyyətlərində uğurlar arzulayıb.

Yeni tədris ilinin əsas prioritetləri, qarşıda duran vəzifələr və təhsil nəticələrinin yüksəldilməsi istiqamətində görüləcək işlər barədə fikirlərini bölüşüb.

Həmçinin məktəb rəhbərlərinin qarşıya qoyulan hədəflərin icrasında məsuliyyətinin artırılması, məktəbdaxili qiymətləndirmənin obyektivliyinin təmin edilməsi və fəaliyyətin konkret, ölçülə bilən nəticələr əsasında qurulmasının əhəmiyyəti diqqətə çatdırılıb.

Qeyd olunub ki, 2026—2027-ci tədris ilində əsas məqsəd müəyyən edilmiş problemlərin həlli, təhsil keyfiyyətinin yüksəldilməsi və hər bir məktəbdə daha səmərəli təhsil mühitinin formalaşdırılmasıdır.

Sektor müdiri Rizvan Ələsgərov çıxış edərək rayon üzrə ötən tədris ilinin nəticələrini, mövcud problemləri və qarşıdakı tədris ili üçün əsas hədəfləri diqqətə çatdırıb.

Rayon üzrə təhsil nəticələrinin əvvəlki illərlə müqayisəli təhlilinin aparılmasının, yüksək və aşağı nəticə göstərən məktəblərin müəyyənləşdirilməsinin, zəif nəticələrin səbəblərinin araşdırılmasının və nəticələrin yüksəldilməsi istiqamətində məqsədyönlü fəaliyyətin qurulmasının vacibliyi vurğulayıb.

Həmçinin məktəblərdə özünüqiymətləndirmə və SWOT təhlilinin nəticələrinin fəaliyyət planlarında nəzərə alınması, dərsdinləmələrin və məktəbdaxili qiymətləndirmənin səmərəli təşkili, zəif nəticəli şagirdlərlə sistemli iş aparılması, müəllimlər arasında təcrübə mübadiləsinin genişləndirilməsi və metodiki dəstəyin gücləndirilməsi məsələlərinə diqqət çəkilib.

Bununla yanaşı, IV və VI siniflər üzrə aparılan monitorinqlərin nəticələri, IX və XI siniflərin buraxılış imtahanlarında əldə olunan göstəricilər təhlil edilərək əvvəlki tədris ili ilə müqayisəli şəkildə təqdim olunub. Təhsil nəticələrinin rayon üzrə inkişaf dinamikası diqqətə çatdırılıb, məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyəti, eləcə də məktəbəqədər təhsillə əhatəliliyin mövcud vəziyyəti və əsas göstəriciləri barədə məlumat verilib.

***

Şirvan və Sumqayıt şəhərlərində, Hacıqabul, Biləsuvar, Quba, Şamaxı, İsmayıllı, Ağsu, Qobustan, İmişli və Sabirabad rayonlarında yeni tədris ilinin başlanması ilə əlaqədar təhsil işçilərinin sentyabr konfransı keçirilib.

Konfranslarda müvafiq regional təhsil idarələrinin rəhbərliyi, idarənin struktur və bölmə rəhbərləri, rayon icra hakimiyyətinin nümayəndələri, rayon və şəhər təhsil sektorlarının müdirləri və sektor əməkdaşları, məktəbəqədər, ümumi və məktəbdənkənar təhsil müəssisələrinin rəhbərləri, metodistlər və qabaqcıl müəllimlər iştirak ediblər.

Ötən tədris ili ərzində təhsil sahəsində görülən işlər, əldə olunan nəticələr və qarşıda duran vəzifələr barədə məlumat verilib. Ümumi təhsil müəssisələrində təlim keyfiyyətinin yüksəldilməsinin əsas prioritetlərdən biri olduğu vurğulanıb.

Bildirilib ki, tədrisin keyfiyyətinin artırılması ilə yanaşı, müasir təlim metodlarından səmərəli istifadə, məktəbdaxili idarəetmənin təkmilləşdirilməsi, tərbiyə işinin düzgün təşkili, sağlam və təhlükəsiz təhsil mühitinin formalaşdırılması istiqamətində işlərin daha da gücləndirilməsi vacibdir.

Hesabat zamanı məktəblərin özünüqiymətləndirməsi, dərsdinləmələrin təşkili, məktəb kateqoriyalarının inkişaf dinamikasının təmin edilməsi, SWOT təhlillərinin nəticələri, məktəbdaxili qiymətləndirmənin obyektivliyi, zəif nəticə göstərən şagirdlərlə aparılan məqsədyönlü işlər, müəllimlər arasında əməkdaşlıq və təcrübə mübadiləsinin əhəmiyyəti barədə müzakirələr aparılıb.

Eyni zamanda, IV və VI siniflər üzrə monitorinqlərin nəticələri, IX və XI siniflər üzrə buraxılış imtahanlarının göstəriciləri əvvəlki tədris ili ilə müqayisəli şəkildə təqdim olunub.

Həmçinin rayon və şəhər üzrə məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyəti, məktəbəqədər təhsildə əhatəliliyin kəmiyyət və keyfiyyət göstəriciləri barədə ətraflı məlumat verilib və müzakirələr aparılıb.

Konfrans müvafiq fənlər və qruplar üzrə panel müzakirələri ilə davam etdirilib.

# NAXÇIVANIN İNKİŞAF STRATEGİYASINDA YENİ MƏRHƏLƏ:

## məktəbəqədər təhsilə dövlət qayğısı

**Naxçıvan Azərbaycanın dövlətçilik tarixində xüsusi yeri olan, strateji və geosiyasi əhəmiyyət daşıyan qədim diyardır. Bu səbəbdən Naxçıvanın sosial-iqtisadi inkişafı, əhalinin rifahının yüksəldilməsi, müasir infrastrukturun formalaşdırılması və burada yaşayan insanların həyat şəraitinin yaxşılaşdırılması dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir. Ölkə başçısı İlham Əliyevin Naxçıvana son səfərini də bölgənin inkişafında yeni mərhələnin konturlarını müəyyən edən mühüm hadisə kimi qiymətləndirmək olar.**

Dövlətin Naxçıvana münasibətində əsas xətt regionun hərtərəfli inkişafının təmin olunması, burada müasir həyat və fəaliyyət şəraitinin daha da yaxşılaşdırılmasıdır. Bu yanaşma yalnız iqtisadi göstəricilərlə məhdudlaşmır. Təhsil, səhiyyə, sosial müdafiə, mədəniyyət, infrastruktur və digər sahələr üzrə həyata keçirilən tədbirlər vahid inkişaf konsepsiyasının tərkib hissəsidir. Xüsusilə sosial sahəyə yönəlmiş qərarlar dövlət siyasətinin mərkəzində insan amilinin dayandığını göstərir. Çünki hər hansı regionun inkişafını yalnız yolların, binaların və istehsal müəssisələrinin sayı ilə ölçmək mümkün deyil. Əsl inkişaf insanın həyat keyfiyyətində, onun təhsil, səhiyyə və sosial xidmətlərə çıxış imkanlarında özünü göstərir. Bu baxımdan məktəbəqədər təhsilə göstərilən diqqət də xüsusi məna daşıyır. Azərbaycan qanunvericiliyində məktəbəqədər təhsilin əhatəliliyinin artırılması, müəssisələrin yaradılması və inkişafının təşviqi, onların maddi-texniki bazasının və kadr təminatının yaxşılaşdırılması dövlətin vəzifələri sırasında müəyyən edilib. Xüsusilə Naxçıvan Muxtar Respublikasında ümumilikdə 640 yerlik 5 yeni məktəbəqədər təhsil müəssisəsi - Naxçıvan şəhərinin Bulqan kəndində 100 yerlik, Ordubad rayonunun Dəstə kəndində 100 yerlik, Şərur şəhərində 100 yerlik, Culfa rayonunun Əbrəqunus kəndində 240 yerlik, Kəngərli rayonunun Qarabağlar kəndində 100 yerlik yeni məktəbəqədər təhsil müəssisəsinin tikintisi ilə bağlı qərar bu baxımdan diqqətçəkəndir. Yeni məktəbəqədər təhsil müəssisəsinin yaradılması Naxçıvanda məktəbəqədər təhsil infrastrukturunun genişləndirilməsinə, uşaqların müasir və təhlükəsiz təhsil mühiti ilə təmin olunmasına, valideynlərin sosial ehtiyaclarının qarşılanmasına və məktəbəqədər təhsilin əlçatanlığının artırılmasına xidmət edən mühüm addımdır. Burada əsas məsələ həmin müəssisələrdə neçə-neçə uşağın ilk təhsil təcrübəsini qazanacağı, neçə ailənin övladının daha əlverişli şəraitdə məktəbəqədər təhsil alacağı və neçə uşağın müasir inkişaf imkanlarından yararlanmasıdır. Bu mənada hər bir yeni məktəbəqədər təhsil müəssisəsi həm də gələcəyə açılan yeni bir qapıdır.

Bu qərar niyə məhz məktəbəqədər təhsil baxımından əhəmiyyətlidir? Çünki, məktəbəqədər yaş dövrü uşağın şəxsiyyətinin formalaşmasının ən mühüm mərhələlərindən biridir. Uşağın sosial, emosional, fiziki və intellektual inkişafının təməli məhz bu dövrdə qoyulur. Ona görə də məktəbəqədər təhsilə ayrılan diqqəti sadəcə təhsil infrastrukturu məsələsi kimi qiymətləndirmək doğru deyil. Bu, əslində insan kapitalına qoyulan sərmayədir. Müasir məktəbəqədər təhsil müəssisəsində uşaq yalnız müəyyən bilik və bacarıqlar qazanmır, eyni zamanda ünsiyyət qurmağı, paylaşmağı, müstəqil qərar verməyi, kollektivdə davranmağı, ətraf aləmi dərk etməyi və özünü ifadə etməyi öyrənir. Deməli, bu gün yaradılan məktəbəqədər təhsil mühiti gələcəkdə formalaşacaq şəxsiyyətin keyfiyyətlərinə birbaşa təsir göstərir. Yeni məktəbəqədər təhsil müəssisələri bu prosesin ilk mərhələlərindən biridir. Bu müəssisələrdə böyüyəcək uşaqlar gələcəkdə Naxçıvanın və Azərbaycanın müxtəlif sahələrində fəaliyyət göstərəcək, ölkənin inkişafına öz töhfələrini verəcəklər. Bu baxımdan Prezidentin Naxçıvana səfərini yalnız bu günün problemlərinə cavab verən tədbirlər kimi deyil, gələcəyin Naxçıvanının formalaşdırılmasına yönəlmiş ardıcıl dövlət siyasətinin növbəti mərhələsi kimi təqdim etmək daha doğru olar.Bu inkişaf yolunda məktəbəqədər təhsilin xüsusi yer tutması təsadüfi deyil. Çünki hər bir böyük inkişafın başlanğıc nöqtəsində insan, insanın inkişafının başlanğıcında isə erkən uşaqlıq dövrü dayanır. Bu baxımdan erkən yaş dövründə təhsil və tərbiyənin düzgün təşkil olunması yalnız uşağın bugünkü inkişafı deyil, onun gələcək həyatının formalaşması baxımından da mühüm əhəmiyyət daşıyır. Burada təhsil və tərbiyə bir-birindən ayrı proseslər kimi deyil, vahid inkişaf prosesinin iki mühüm istiqaməti kimi çıxış edir. Uşaq öyrənməklə yanaşı, davranış qaydalarını mənimsəyir, kollektivdə münasibət qurmağı, paylaşmağı, əməkdaşlıq etməyi və başqalarının hüquq və hisslərinə hörmətlə yanaşmağı öyrənir. Buna görə də məktəbəqədər təhsil müəssisəsi uşağın həyatında ilk mühüm sosiallaşma məkanlarından biridir.

Məktəbəqədər təhsilin əhəmiyyəti onun dövlət siyasətindəki yerində də öz əksini tapır. Azərbaycanda bu sahənin inkişafı istiqamətində son illər ərzində məktəbəqədər təhsilin əhatə dairəsinin genişləndirilməsi, yeni müəssisələrin yaradılması, mövcud infrastrukturun yenilənməsi, təhsil mühitinin müasirləşdirilməsi və keyfiyyətin yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Dövlətin bu sahəyə yanaşmasının əsas məqsədlərindən biri uşaqların yaşadıqları ərazidən və ailələrinin sosial imkanlarından asılı olmayaraq məktəbəqədər təhsilə çıxış imkanlarının genişləndirilməsidir. Bu baxımdan yeni məktəbəqədər təhsil müəssisələrinin tikilməsi xüsusi əhəmiyyət daşıyır. Bu, daha çox uşağın məktəbəqədər təhsilə cəlb olunması, müasir təhsil mühitində inkişaf etməsi, daha çox ailənin bu xidmətdən yararlanması deməkdir. Naxçıvanda beş yeni məktəbəqədər təhsil müəssisəsinin tikintisi ilə bağlı qərarı da məhz bu kontekstdə qiymətləndirmək mümkündür. Bu addım bölgədə məktəbəqədər təhsil infrastrukturunun genişləndirilməsi ilə yanaşı, uşaqlar üçün daha müasir və əlçatan təhsil imkanlarının yaradılmasına yönəlmiş mühüm sosial investisiyadır. Müasir dövrdə məktəbəqədər təhsilin inkişafı yalnız yeni binaların tikintisi ilə məhdudlaşmır. Burada maddi-texniki bazanın gücləndirilməsi, müasir təlim vasitələrinin tətbiqi, pedaqoji kadrların peşəkarlığının artırılması, innovativ metodların tətbiqi və uşaqların fərdi inkişafına yönəlmiş yanaşmaların genişləndirilməsi də mühüm əhəmiyyət daşıyır.




Dövlət başçısının müvafiq Sərəncamı ilə Naxçıvanda yeni məktəbəqədər təhsil müəssisəsinin tikintisinin nəzərdə tutulması bölgənin təhsil infrastrukturu üçün mühüm perspektivlər yaradır. Bu baxımdan qarşıdakı mərhələdə əsas vəzifə yeni məktəbəqədər təhsil müəssisələrinin müasir tələblərə cavab verən, uşaqların hərtərəfli inkişafını təmin edən və uzunmüddətli istifadəyə hesablanan təhsil məkanları kimi formalaşdırılmasıdır. Bütün bu tədbirlərin son məqsədi isə uşaqlar üçün keyfiyyətli təhsil və tərbiyə mühitinin yaradılmasıdır. Deməli, bu gün məktəbəqədər təhsilə ayrılan diqqət sabah daha savadlı, daha yaradıcı, daha məsuliyyətli və cəmiyyətə daha fəal töhfə verən nəslin formalaşmasına xidmət edir. Bu baxımdan Prezidentin Naxçıvana göstərdiyi diqqət və məktəbəqədər təhsillə bağlı qəbul edilən qərar təkcə sosial layihə deyil, insan kapitalına yönəlmiş uzunmüddətli investisiya kimi dəyərləndirilə bilər.

Nəticə etibarilə, Naxçıvanda yeni məktəbəqədər təhsil müəssisəsinin tikintisi ilə bağlı qərarı yalnız yeni təhsil ocağının yaradılması kimi qiymətləndirmək bu addımın mahiyyətini tam ifadə etməz. Bu qərar uşaqların inkişafına, ailələrin rifahına, təhsilin əlçatanlığına və gələcək insan kapitalının formalaşmasına yönəlmiş strateji addımdır.

Çünki gələcəyə ən böyük sərmayə uşağa verilən təhsildir. Uşağa verilən ən böyük imkan isə onun potensialına inanmaqdır.

**Ayşən ƏSGƏROVA,**
**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi Aparatının Məktəbəqədər təhsil sektorunun müdiri**

# "Müəllimlərimizə etibar çox vacibdir"

**Alimin elmə verdiyi töhfə yalnız apardığı tədqiqatlarla ölçülmür. Onun əsl irsi yetişdirdiyi, elmə qazandırdığı yeni nəsillərdə yaşamağa davam edir. Azərbaycan elminin sərhədləri aşaraq dünyada tanınmasına öz töhfələrini vermiş görkəmli alimlərimizdən danışarkən, hazırda Türkiyədə yaşayan, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, bu günlərdə 80 yaşı tamam olan fizika-riyaziyyat elmləri doktoru, professor Əmirullah Məmmədovun adını böyük fəxarətlə çəkə bilərik. Yubilyar alimin elmi irsi və çoxillik fəaliyyəti Azərbaycan elminin inkişafında, eləcə də ölkənin tərəqqisinə xidmət edən yeni elmi nəslin yetişdirilməsində öz əksini tapır. Professor Əmirullah Məmmədov "Azərbaycan müəllimi" qəzetinə müsahibəsində universitetlərimizin inkişaf yolundan, mütəxəssis hazırlığından, gənc alimlərin yetişdirilməsindən və gənclərə tövsiyələrindən danışdı.**



## Əmirullah Məmmədov: "Elm və təhsil sahəsində həyata keçirilən islahatlar çox mühüm və vacib addımlardır"

**"Heç zaman ölkəmlə, Vətənimlə əlaqələrimi kəsməmişəm"**

*— Uzun illərdir ki, Türkiyədə yaşayıb fəaliyyət göstərirsiniz. Azərbaycan universitetləri ilə əlaqələriniz barədə nə deyərdiniz? Bu əlaqələr, əsasən, hansı istiqamətlərdə qurulub?*

— Bildiyiniz kimi, mən 50 ilə yaxındır ki, xaricdə yaşayan azərbaycanlı elm adamıyam. Son 35 ildə isə Türkiyədə yaşayıram və çalışıram. Uzun illər Çukurova Universitetinin (Adana) ədəbiyyat və mühəndislik fakültələrində çalışdım, daha sonra təqaüdə çıxdım. Son 15 ildir ki, Bilkənd Universitetinin Nanotexnologiyalar Tədqiqat Mərkəzində fəaliyyətimi davam etdirirəm. Əvvəllər də bu ali məktəbdən təkliflər alırdım və son təklifi qəbul etdim.

Uzun illər xaricdə yaşamağıma və çalışmağıma baxmayaraq, mən heç zaman ölkəmlə, Vətənimlə əlaqələrimi kəsməmişəm. Yaşadığım ölkələrdə Azərbaycan həqiqətlərini müxtəlif cəmiyyətlərə və toplumlara anlatmağa çalışmışam. Eyni zamanda, həm doğma Bakı Dövlət Universiteti, həm digər ali məktəblərlə, həm də Elmlər Akademiyamızın müvafiq institutları ilə müxtəlif elmi tədqiqatlar aparmış, müştərək məqalələr dərc etdirmiş və beynəlxalq elmi konfranslarda Azərbaycan elmini layiqincə təmsil etmişəm.

2000-ci illərin əvvəllərində dünya universitetləri sıralamasında Azərbaycan universitetləri olduqca geridə idi. Mən həm Təhsil Nazirliyi, həm də BDU rəhbərliyi ilə görüşərək bir təklif verdim. BDU nəzdində virtual elmi tədqiqat mərkəzi yaratdıq. Bu mərkəzin üzvləri — əvvəllər BDU-dan məzun olmuş və ya BDU-da çalışmış, hazırda isə xaricdə yaşayan və fəaliyyət göstərən alimlər — elmi tədqiqatlarının nəticələrini dünyada tanınan və oxunan jurnallarda dərc etdikləri zaman iş yerləri sırasında BDU-nun da adını göstərəcəkdilər. Beləliklə, dünya elmi ictimaiyyəti həm elmi məqalələrin sayı, həm də həmin məqalələrə verilən istinadlar vasitəsilə BDU haqqında məlumat əldə edəcəkdi.

Elmi Mərkəzin internet səhifəsində (International Scientific Center of BSU) Azərbaycan problemləri və iqtisadiyyatı, təbiəti və insanları, Qarabağ savaşı və Azərbaycanın haqq mübarizəsi, Ermənistan-Azərbaycan münaqişəsi və digər məsələlərlə bağlı informasiyalara yer verməyə qərar verdik. Bütün bunlar 7—8 il sonra öz bəhrəsini verməyə başladı.

Azərbaycan Texniki Universiteti, UNEC və digər ali məktəblərlə də bənzər işlər həyata keçirməyə çalışdıq və bu universitetləri təşviq etmək üçün yollar axtarmağa başladıq. Bundan əlavə, həm BDU-da, həm də AzTU-da elmin aktual problemlərinə dair məruzələrlə çıxış etdim, tələbələrlə müxtəlif görüşlər keçirdim. Bu görüşlər həm onlayn, həm də əyani formatda oldu.

Tələbələrimizi həm bakalavr, həm magistratura, həm də doktorantura səviyyələrində Türkiyədəki universitetlərdə təhsil almağa dəvət etdim. Onlara hansı kriteriya və tələblər yerinə yetirildiyi təqdirdə Bilkənd Universitetində ödənişsiz və Bilkənd təqaüdü hesabına təhsil ala biləcəkləri barədə məlumat verdim və onları təşviq etdim. Gənclərə həm dünya, həm də Azərbaycan iqtisadiyyatının hansı ixtisaslara daha çox ehtiyac duyduğunu sadə dillə anlatmağa çalışdım. Eyni zamanda Türkiyədə oxuyan azərbaycanlı tələbələrimizə dəstək olaraq onları müxtəlif sahələrə yönləndirdim.

**"İki istedadlı azərbaycanlı tələbəyə təqaüd veririk"**

*— Türkiyədəki Azərbaycanlı Alimlər Birliyinə (Azərbaycan Bilim İnsanları Dərnəyi — ABİD) rəhbərlik edirsiniz. Birliyin fəaliyyəti və qardaş ölkədə azərbaycanlı alimlərin koordinasiyası barədə nə deyərdiniz?*

— Əslində, Türkiyədə çalışan azərbaycanlı alimlərin problemlərini üç sinfə ayırmaq mümkündür: hüquqi problemlər, təqaüdə çıxma və təzminat məsələlərinin həlli, bir vaxtlar SSRİ dövründə alınmış müxtəlif diplomların ekvivalentliyinin tanınması.

Biz ABİD olaraq bu məsələlərin həllində həm hüquqi yolları göstəririk, həm də Azərbaycanın Ankaradakı səfirliyinin və təhsil müşavirinin köməyi ilə Türkiyə Ali Təhsil Şurasında (YÖK) bu məsələlərin həllinə nail olmağa çalışırıq.

Bundan əlavə, Azərbaycandan gələn istedadlı gənclər üçün elmi rəhbərlərin tövsiyə edilməsi, Türkiyədə müvafiq ixtisaslar üzrə ən yaxşı müəllimlərlə görüşdürülməsi istiqamətində çalışırıq və bu işi davamlı şəkildə həyata keçiririk. Eyni zamanda istedadlı tələbələrə imkanlarımız daxilində təqaüd veririk.

Bu il ehtiyacı olan iki istedadlı tələbəyə — biri bakalavr, tibb ixtisası üzrə, digəri isə magistratura səviyyəsində təhsil alan tələbəyə təqaüd verdik. Sentyabr ayında yay imtahan sessiyasının nəticələrinə və ailə vəziyyətinə görə bu məsələni bir daha nəzərdən keçirəcəyik. Bizim iki kriteriyamız var: dərslərdə uğurlu olmaq və Türkiyə üzrə ilk 10 universitetdən birinin tələbəsi olmaq.

*— İki ölkə arasındakı akademik və elmi əlaqələrin gücləndirilməsi, elm adamları arasında ortaq layihələrin və elmi mübadilənin qurulması, gənc tədqiqatçılara dəstək göstərilməsi barədə nə deyərdiniz?*

— Bildiyiniz kimi, həm Azərbaycanda, həm də Türkiyədə TÜBİTAK (Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurası) və digər elmi fondlar elmi tədqiqat işlərinə maliyyə dəstəyi verir. Bu proqramları hər iki ölkədə tanıdaraq azərbaycanlı istedadlı gənclərin Türkiyədə, istedadlı türk gənclərinin isə Azərbaycanda elmi tədqiqatlarda fəal iştirakını təmin etməyə və təbliğ etməyə çalışırıq.

Bu cür işlərdə ən böyük problem istedadlı gəncləri doğru elmi mərkəzlərə yönləndirmək və onları tanınmış elm adamları ilə görüşdürməkdir. Gənclərimizin böyük hissəsi İstanbuldan kənardakı universitetlərdən və TÜBİTAK-ın elmi mərkəzlərindən, oradakı mövcud imkanlardan kifayət qədər xəbərsizdir. Hamı yalnız İstanbul universitetlərində təcrübə keçmək və işləmək istəyir.

**"Universitetlərimizdə dərs verəcək yeni düşüncəli alimlərə ehtiyac var"**

*— Ölkəmizdə elmin gələcək inkişafı ilə bağlı təklif və tövsiyələrinizi eşitmək istərdik.*

— Sovet İttifaqının dağılması ilə ölkəmizin təhsil sistemi də olduqca böyük geriləmə yaşadı, ancaq son 15 ildə inkişaf yoluna keçə bildi. Əvvəlki elmi əlaqələrin yox olması, iqtisadiyyatın çökməsi kimi amillərin təhsilimizə təsir etməməsi mümkün idimi? Dəyərli elm adamlarımızın müxtəlif ölkələrə köçməsi və həyatlarını xaricdə davam etdirməsi də təhsilimizə zərbə vurmuşdu. Bunların yanında təhsil islahatlarının gerçəkləşməməsi və bir çox digər mənfi amillərin bir araya gəlməsi həm təhsilin, həm də elmin inkişafına mənfi təsir göstərmişdir.




Son zamanlarda isə həm Milli Elmlər Akademiyasında, həm də ali təhsil müəssisələrində baş verən dəyişikliklər və həyata keçirilən islahatlar elm və təhsilimizin inkişafı ilə bağlı ümidlərimizi artırıb. Bu islahatlar sayəsində elmə ayrılan maliyyə və dövlət dəstəyi, yeni və yüksək texnologiyaların ölkəmizdə tətbiq olunması, yeni ixtisasların gündəmə gəlməsi və bu sahələrdə yeni kadrların hazırlanması üçün atılan addımları müsbət dəyərləndirirəm.

Amma bu işləri köhnə qaydalarla etmək olmaz. Yeni mütəxəssislərə və universitetlərimizdə dərs verəcək yeni düşüncəli alimlərə ehtiyac var. Bu, bizim ən böyük məsuliyyətimizdir. Bu məsələyə lazımi diqqət ayrılmalıdır. Düşünün, ali təhsil ocaqlarında çalışan professor-müəllim heyətinin orta yaşı 60 və ondan yuxarıdır. Gəncləri ali təhsilə və elmə cəlb etmək üçün onlara lazımi dəstəyi vermək lazımdır.

**"Elmi-tədqiqat institutlarında müxtəlif universitetlər üçün kafedralar yaradılmalıdır"**

*— Gəncləri elmə necə cəlb etmək barədə təklifləriniz varmı?*

— Mən istər Azərbaycan Texniki Universitetinin, istər Bakı Dövlət Universitetinin, istərsə də digər Azərbaycan universitetlərinin rektorları ilə sıx əlaqə saxlayıram. Azərbaycan ali təhsil müəssisələrinə belə bir təklif verdim: dedim ki, siz əvvəlcə müxtəlif ixtisaslar üzrə — deyək ki, fizika, riyaziyyat, kimya, kompüter mühəndisliyi, elektronika, müdafiə sənayesi və digər oxşar sahələr üzrə — mütəxəssis hazırlayan universitetlərin məzunları arasından ən yaxşı 7—8 nəfəri seçin. Biz 2—3 nəfər nümayəndə ilə Bilkənd Universitetindən Bakıya gələcəyik və seçdiyiniz məzunlarla imtahan deyil, müsahibə aparacağıq. Bizim iki seçim kriteriyamız var. Birincisi, onlar ingilis dilini TOEFL, IELTS və ya başqa bir proqram üzrə müəyyən səviyyədə bilməlidirlər. Bu, ona görə lazımdır ki, sonra Türkiyəyə gəlib təhsil aldıqları zaman yenidən xarici dil dərslərinə getməsinlər. İkincisi isə məzun olduqda orta müvəffəqiyyət balının 4 ballıq sistem üzrə 3-dən yüksək olmasıdır. Onları Türkiyəyə gətirib burada magistratura və doktoranturada oxudacağıq. Onların bütün xərclərini biz ödəyəcəyik, hətta onlar 500—600 avro və ya dollar həcmində təqaüd də alacaqlar. Burada təhsillərini başa vurduqdan sonra isə Bakıya dönəcəklər.

Mən bu məsələləri Elm və Təhsil Nazirliyinin və onun müvafiq qurumlarının rəhbərləri ilə də müzakirə etmişəm. Bakıya gələndə elm və təhsil naziri Emin Əmrullayevlə də görüşürəm.

*— Elm və təhsilin inteqrasiyası barədə düşüncələrinizi bölüşməyinizi xahiş edirik. Bu inteqrasiya necə baş verməlidir?*

— Bu suala müsbət cavab verəcəyəm. Milli Elmlər Akademiyasında və Elm və Təhsil Nazirliyində həyata keçirilən islahatlar bu yolda atılan mühüm və vacib ilk addımlardır. Məncə, bundan sonra elmi-tədqiqat institutlarında (ETİ) müxtəlif universitetlər üçün aparıcı kafedralar yaradılmalıdır. ETİ-lərdə çalışan alimlərin müasir elmi nailiyyətləri fasiləsiz olaraq bakalavr və magistratura səviyyələrində təhsil alan tələbələrə çatdırılmalı, bu qurumlardakı yüksək texnologiyalarla təchiz olunmuş laboratoriyalar tələbələr üçün böyük imkanlar yaratmalıdır.

Yəni universitetlərimiz aparıcı ixtisaslar üzrə kafedralarını ETİ-lərə daşıya bilər. Məsələn, BDU-nun fizika fakültəsinin 1—2 kafedrası Fizika İnstitutunda təşkil oluna bilər. BDU-nun kimya fakültəsi və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin bir çox ixtisasları üçün Neft-Kimya Prosesləri İnstitutunda kafedraların yaradılması da məqsədəuyğundur.

**"Ali təhsilin keyfiyyəti universitet-sənaye əməkdaşlığından keçir"**

*— Azərbaycan elminin və təhsilinin səviyyəsini dünya səviyyəsinə çatdırmaq üçün hansı addımları atmağı vacib hesab edirsiniz?*

— Hazırda ali təhsilin keyfiyyəti dünyanın hər yerində tətbiq olunan universitet-sənaye əməkdaşlığından keçir. Yəni universitetlərdə və bu universitetlərlə əməkdaşlıq edən ETİ-lərdə ölkə iqtisadiyyatımıza lazım olan layihələr üzərində çalışmaq, müxtəlif nazirliklərin və şirkətlərin maliyyə dəstəyi və sifarişi ilə elmi tədqiqatlar aparmaq və bu tədqiqatların nəticələrinin tətbiqinə nail olmaq lazımdır.

*— Ali məktəblər elmi kadrların hazırlanması sahəsində hansı işləri görməlidir?*

— Bu barədə ETN və müvafiq nazirlik və qurumlar əvvəlcə ölkəmiz üçün ən vacib, prioritet elm və mühəndislik sahələrini müəyyən etməlidirlər. Daha sonra bu sahələrdəki elmi-pedaqoji potensialı təsbit etmək və ilk olaraq diqqətimizi həmin sahələrə cəmləşdirmək lazımdır. Digər elm və texnologiya sahələri isə hazırkı fəaliyyətlərini davam etdirməlidirlər.

Hər elm və texnologiya sahəsində uğurlu olmaq mümkün olmaya bilər. Elmin bütün sahələrində uğur əldə etmək üçün kifayət qədər maliyyə resursları tələb olunur. Ona görə diqqətimizi yalnız bəzi sahələrə cəmləşdirməliyik.

**"Əgər düzgün nə edəcəyinizi bilirsinizsə və bu işdə bacarıqlı olacaqsınızsa..."**

*— Siz tələbələrimizlə də görüşür, öz təcrübələrinizi bölüşürsünüz...*

— Bəli, mən BDU və AzTU tələbələri qarşısında da məlum məsələlərlə bağlı çıxışlar etmişəm. Onlara demişəm ki, siz elə düşünməyin ki, fizikadan və ya digər elm sahəsindən pul qazanmaq olmaz. Çox yaxşı pul qazanmaq mümkündür. Ancaq bilməlisiniz ki, ən qabaqcıl texnologiyalar hansılardır və həmin sahələrlə məşğul olmalısınız. Bu halda şirkətlər tərəfindən tələb olunan, axtarılan mütəxəssis olacaqsınız. Yoxsa təməl bilikləri alıb, əzbərləyib, süni intellektə arxalanaraq nələrisə öyrənmək olmaz. Bir qədər də özünüz düşünməlisiniz: bu texnologiyanı necə yaradıb inkişaf etdirəcəksiniz?

Mən dəfələrlə tələbələrlə həm onlayn, həm də üzbəüz görüşmüşəm. Hər kəs mənim bütün əlaqə məlumatlarımı, e-poçt ünvanlarımı bilir. Mən ildə bir neçə dəfə Bakıya gəlirəm. Öz təcrübəmdən tələbələrə hər şeyi anlatmışam.Demişəm ki, mən 1977-ci ildən sonra Azərbaycandan çıxmışam. Amerikada, Yaponiyada, ən böyük şirkətlərdə, mərkəzlərdə, İtaliyanın bir nömrəli Roma La Sapienza Universitetində, Türkiyəyə gəldikdən sonra isə İstanbul Texniki Universitetində, Adanadakı Çukurova Universitetində çalışmışam. İlk xarici vətəndaş kimi 15 il ASELSAN şirkətinin rəhbərinin gecəgörmə və optoelektronika sistemləri üzrə elmi məsləhətçisi olmuşam. Oradan da, digər 3—5 yerdən də maaş almışam.

Əgər düzgün nə edəcəyinizi bilirsinizsə və bu işdə bacarıqlı olacaqsınızsa, çox yaxşı, halal pul da qazana bilərsiniz. Tələbələrə bunları da söyləyirəm.

*— Azərbaycanlı yetirmələriniz varmı? Elm yolunu seçən gənclərimizə nə kimi tövsiyələriniz var?*

— Əlbəttə, var. Hazırda BDU-da çalışan professor İzzət Əfəndiyevanı, dosent Lalə Hacıyevanı və baş elmi işçi Gönçə Eyvazovanı göstərə bilərəm. Başqa universitetlərdə və müxtəlif ölkələrdə çalışanlar da var. Əlbəttə, dünyanın müxtəlif ölkələrində, xüsusən də Türkiyədə çalışan azərbaycanlı elm adamlarının sayı daha çoxdur.

Türkiyənin müxtəlif universitetlərində çalışan 20-dən çox aspirantım var. Onlardan iki nəfəri istisna olmaqla, qalanları professordur, dekan və kafedra müdirləridir. Misirin Assuit Universitetində bir ərəb aspirantım var, professor kimi fəaliyyət göstərir. Türkiyədə qalaraq ailə qurmuş və hazırda Adıyaman Universitetində müəllim işləyən bir azərbaycanlı aspirantım da var — Mehriban Əmək-Yusufova. O, 1990-cı ildə Türkiyəyə gələn ilk tələbələrdəndir və Çukurova Universitetinin Fizika fakültəsinin məzunudur.

**"Diqqət edərdik ki, müəllimimizin iki paltarı var idi, bir həftə birini, o biri həftə digərini geyinərdi"**

*— Müəllimlərimizə çatdırmaq istədiyiniz hansı fikirləriniz var?*

— Mənə görə, təhsilimizdə müəllimlərimizə, bizə elm və bilik verən insanlara etibar çox vacibdir. Tələbə və yaxud şagird ona dərs verən müəllimə etibar etməlidir. Əgər ona etibar edirsə, həm müəllim yüksəlir, həm də tələbə sevə-sevə o dərsi alır. Yəni tələbə müəllimdə sirdaş, etibar edə biləcəyi şəxsi görməlidir. Mənim əsas düşüncəm budur.

Mən ibtidai məktəbə Bakıdakı 44 nömrəli məktəbdə getmişəm. Bu məktəb şəhərin ən qədim təhsil ocaqlarındandır. Düşünün ki, mənim rəhmətlik ata-anam da o məktəbdə oxuyub, o məktəbi bitiriblər. 100 ildən çox tarixi var o məktəbin. Mənim 80 yaşım var. Amma 75 il bundan əvvəl mənə ibtidai məktəbdə əlifbanı öyrədən müəllimimin adını, soyadını unutmamışam — Hökumə Səfərova. Bu, müəllimimin mənim həyatımda buraxdığı izin nəticəsidir. Biz hamımız öz müəllimlərimizə etibar edirdik. Onlar bizim sirdaşımız idi. Ona görə mən arzu edərdim ki, Azərbaycandakı professor-müəllim heyətimiz, orta məktəblərimizdəki müəllimlərimiz tələbələrin və şagirdlərin sevdiyi, hörmət və etibar etdiyi insanlar olsunlar. O zaman təhsilimiz daha da yüksələr.

**Oruc MUSTAFAYEV**



## HİKMƏT ƏLİZADƏ - 70

**Həqiqət və xoşbəxtlik axtarışı ilə şüurlu fəaliyyətə başlayan insan hələ qədim dövrdən etibarən öz real dəyərini görmək üçün, getdiyi yolun düz və ya səhv olduğunu müəyyən etmək üçün, öz fəaliyyətini qiymətləndirmək üçün yubileylər fikirləşib tapıb, zaman-zaman onlar insanın yaşadıqlarının hesabatına çevrilib, insana geri dönüş edərək, özünü təhlil etməyə imkan verib. Əlbəttə, bu gəlimli-gedimli dünyada kəşməkeşli yollarla addımlamaq o qədər də asan deyil, yubileylər vasitəsi ilə insanın özünüqiymətləndirməsi buna görə "kəşf" edilib ki, insan özünü təhlil etsin, qiymətləndirsin, daha düzgün mövqe əldə etməyin yollarını tapa bilsin. Bu gün yubiley sınağında növbə professor Hikmət Əlizadənin və onun uğurlarınındır.**

# Yaradıcılıq şəxsiyyət keyfiyyətləri ilə çulğalaşanda

### Bir tanışlığın tarixi

Dünya qəribə hadisələrlə zəngindir, hər bir insan özü də bilmədən həyat burulğanı onu belə hadisələrin mərkəzinə ata bilir, bu gün baş verənin sabah öz inkişafını necə davam etdirəcəyini heç kim bilmir. Mən əvvəlcə Hikmət müəllimin atası Əbdül Əlizadə ilə tanış olmuşam, bu tanışlığın qiyabi olduğunu biləndə yəqin ki, hamı təəccüblənəcək. Tələbə idim. 1964-cü ildə ali təhsil müəssisələri üçün professor M.Məhərrəmovun redaktorluğu ilə müəllifləri Ə.K.Zəküzadə, F.Ə.İbrahimbəyov, M.C.Məhərrəmov, Ş.S.Ağayev, Ə.S.Bayramov və Ə.Ə.Əlizadə olan "Psixologiya" dərsliyi nəşr edilmişdi. O həmin dövrdə Azərbaycanda psixologiya fənni üzrə pedaqoji ali məktəblərin istifadəsində olan yeganə dərslik idi, Əbdül Əlizadə dərsliyin X fəslini, "Təxəyyül" mövzusunu qələmə almışdı. Bu fəslə aşağıdakı mövzular daxil idi: "Təxəyyül haqqında anlayış", "Təxəyyülün növləri", "Uşaqlarda təxəyyülün inkişafı".

Semestr imtahanında çəkdiyim biletə həmin mövzu düşdü. İmtahandan "əla" qiymət aldım. Müəllif mövzunun mahiyyətini elə izah edə bilmişdi ki, onu öyrənən hər bir tələbə əla qiymət almalı idi.

Ali məktəbi bitirib, işləmək üçün Sabirabad rayonuna təyinat aldım. Müəllim işlədiyim illərdə Əbdül müəllimlə yenidən qiyabi görüşdüm, bu dəfə "Azərbaycan məktəbi" jurnalının, "Azərbaycan müəllimi" qəzetinin səhifələrində, orada çap olan məqalələri vasitəsi ilə, həm özünütəhsil, həm də şagirdlərlə qarşılıqlı münasibətlərdə onlardan faydalanmağa çalışmaq məqsədi ilə həmin illərdə ən çox mütaliə etdiyim müəlliflərdən biri Əbdül müəllim idi.

1975-ci ildə müsabiqədən keçərək Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutuna (hazırda Təhsil İnstitutu) kiçik elmi işçi vəzifəsinə qəbul edildim. Tale elə gətirdi ki, Əbdül müəllimlə bu dəfə əyani tanış oldum. Əvvəllər həmkar kimi tədbirlərdə görüşürdük, sonralar tanışlığımız əməkdaşlığa çevrildi. Talenin hökmü ilə biz onunla birlikdə, "Ailə həyatının etika və psixologiyası" fənn proqramını, "Ailə" dərsliyini, "Ailə həyatının etika və psixologiyası" (müəllimlər üçün vəsait), "Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat" dərs vəsaitlərini, bu mövzuya həsr olunmuş məqalələr, metodik vəsaitlər qələmə almalı olduq. Heç gözləmədiyim halda, öz müəllimim kimi qiymətləndirdiyim Əbdül müəllim növbəti dəfə görüşəndə "Sən mənim kiçik qardaşımsan, mənim tərcümeyi-halıma düşmüsən" dedi. Bunlar təsadüfi deyilən sözlər deyildi, dünyanın nadir hadisələrindən biri baş vermişdi. Tanışlığımız əməkdaşlığa, əməkdaşlığımız dostluğa çevrilmişdi. Əbdül müəllim elmi əsərlərinin siyahısını yazarkən birlikdə qələmə aldığımız əsərlərinin qarşısında həmmüəllif kimi mənim adımı və soyadımı yazırdı. Ona görə deyirdi ki, "tərcümeyi-halıma düşmüsən". Mən də qürur hissi ilə həmmüəllif kimi onun adını yazırdım.

Gizlətmək istəmirəm, onun "kiçik qardaş" ifadəsi mənim çox xoşuma gəlirdi. Bu ifadəni birinci dəfə o işlətmişdi, ikinci dəfə mən, yadımdan heç çıxmaz, Əbdül müəllimin yubileyində "Kiçik qardaşın böyük qardaşa məktubu" adlı məqalə hazırlayıb çap etdirdim. Bu tarix unudulmaz bir xatirədir.

Günlərin birində Əbdül müəllimlə yenə institutda görüşdük. Tək deyildi, yanında Hikmət müəllim də var idi. Adını eşitmişdim. Bizi tanış etdi. Dedi: bir-birinizdən muğayat olun, hər ikiniz pedaqogika sahəsində çalışırsınız, birlikdə kitablar, dərsliklər yazın. Bu tanışlıqla o mənim həyatımda yeni səhifəni açmış oldu, kamil, fəxrediləsi, belbağlamalı, yüksək şəxsiyyət keyfiyyətlərinə malik olan bir insanla dostluğumun tarixi belə başladı.

### Müəllimlik və alimlik estafetin davamçısı

Əbdül müəllimin yetirmələri çoxdur, onların ön cərgələrində Hikmət müəllimi görmək adama böyük qürur hissi verir, övladın atanın başladığı işləri davam etdirməsi hələ bəşər tarixinin ənginliklərində yaranıb, insanlar bunu irsiyyətlə bağlayıblar, bu fikirlə razıyıq, amma burada hesab edirik ki, atanın ailədə yaratdığı sosial mühit və öz peşəkarlığı da az əhəmiyyət daşımır. Əbdül müəllim, necə deyərlər, intellektin, mənəviyyatın və zəhmətin vəhdətində əldə etdiyi həm müəllimlik, həm də alimlik yüksəkliyini Hikmət müəllimə etibar edib, bu övlad üçün ağır sınaq olmasına baxmayaraq, qürurvericidir, indi o bu etibarı ucaltmalı, estafeti davam etdirməli idi. Bizim hər birimizin gözü qarşısında o öz həyat hekayəsi ilə bu etibarı uca tuta bildi, onu dəyərləndirə bildi, dəyərləndirdiyi üçün də ona yeni məzmun verə bildi.

Tərcümeyi-halı kontekstində həyat yoluna nəzər salanda orta və ali təhsil illəri, məktəbdə müəllim kimi əmək fəaliyyəti, hərbi xidmət və aspirantura dövrü - həyatının bu mərhələləri ona sonrakı fəaliyyəti üçün zəruri olan bilik və təcrübənin toplanmasına xidmət göstərdi. Həqiqi karyera yüksəlişləri və onun uğurları bundan sonra başladı və ölkəmizdə ali təhsilin flaqmanı sayılan Bakı Dövlət Universiteti ilə bağlı oldu. Bu universitet mahiyyəti etibarı ilə həm böyük elm, həm böyük təhsil, həm də böyük tərbiyə məkanıdır. Hikmət müəllim burada hökm sürən ali münasibətlər sisteminin əhatəsində inkişaf edə-edə, püxtələşə-püxtələşə Pedaqogika kafedrasında assistent, müəllim, dosent, professor vəzifələrində çalışdı, yüksəldi, özünü təsdiq edə bildi. Akademik biliyi, didaktik, perseptiv, kommunikativ, nitq və təşkilati qabiliyyətləri, humanist və ədalətli məzmun kəsb edən pedaqoji taktikası, şəxsiyyət keyfiyyətləri ilə müəllimlik fəaliyyətində, koqnitiv bacarıqları, kreativ keyfiyyətləri ilə yeniliklərə imza ata-ata, alimlik fəaliyyətində fərqlənə bildi. Hətta BDU həyatının on beş ilini Sosial elmlər və psixologiya fakültəsinin dekanı vəzifəsinə, həmin fakültənin çiçəklənməsinə həsr etdi. Elmi rəhbərliyi ilə iyirmiyə qədər fəlsəfə doktoru yetişməsi ilə də bu illəri zənginləşdirə bildi. Rəsmi opponentliyi ilə pedaqoji elmlər sahəsində dissertasiya yazan gənclərin yetişməsi istiqamətində də öz töhfəsini əsirgəmədi. Müxtəlif illərdə BDU-da fəaliyyət göstərən "Psixologiya" ixtisası üzrə dissertasiya şurasında üzv və həmsədr kimi, başqa ali təhsil ocaqlarında "Pedaqogika" ixtisası üzrə həm fəlsəfə doktoru, həm də elmlər doktoru üzrə dissertasiya şuralarında üzv, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında pedaqogika və psixologiya ixtisasları üzrə ekspert şurasının sədri və üzvü olaraq, həyat hekayəsinə ali kadr hazırlayan müəllim və alim kimi zənginlik əlavə edə bilmişdi.

Hazırda Azərbaycan İdman Akademiyasında fəaliyyət göstərən pedaqoji elmlər üzrə FD 2.54 dissertasiya şurasının üzvü və şuranın nəzdindəki elmi seminarın sədridir.

Çətin və şərəfli alim ömrünün özünəməxsusluqları var, onlardan biri də alimin konkret tədqiqat problemini tədqiq etməsidir. Hikmət müəllimin elmi yaradıcılığı özündə iki istiqaməti ehtiva edir: sosial pedaqoji və psixopedaqoji tədqiqatlar.

Sosial pedaqoji tədqiqatların nəticəsi olaraq, 1985-ci ildə "IV-VIII sinif şagirdlərinin təlimə məsuliyyətli münasibətinin formalaşmasına demoqrafik amillərin neqativ təsirinin korrektə edilməsi" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək, pedaqoji elmlər namizədi; 1996-cı ildə "Tərbiyənin demoqrafik problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək, pedaqoji elmlər doktoru elmi dərəcəsi aldı. Bu tədqiqatların nəticəsində onun "Tərbiyənin demoqrafik problemi" (1993) və "Sosial pedaqogikanın aktual problemləri" (1998) monoqrafiyaları, "Təhsilin sosial-pedaqoji məsələləri" (2008, həmmüəlliflə) və "Sosial pedaqogika" (2013, həmmüəlliflə) dərslik və dərs vəsaitləri, çoxlu sayda məqalələri qəzet və jurnallarda oxucuların ixtiyarına verildi.

Hikmət müəllim 2000-ci ildən etibarən Ə.Ə.Əlizadə ilə birlikdə psixopedaqoji tədqiqatlara başlamışdır. Bu istiqamət üzrə onun həmmüəllifliyi ilə "Əsrin meqameylləri: psixopedaqoji problemləri" (III cilddə, 2008), "Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş" (2008), "Pedaqoji psixologiya" (2 cilddə, 2010), "Psixopedaqogika" (2019) kitabları ərsəyə gəlmişdir. Sonuncu kitabda həmmüəlliflərdən biri, onun qızı, dosent Səbinə Əlizadədir.

Bundan əlavə, H.Ə.Əlizadə tələbələr üçün "Pedaqogika" (2001, Akif Abbasovla), "Distant təhsil pedaqogikası" (2021, A.Zamanov, S. Rüstəmov, S. Əlizadə ilə), "Pedaqogika" (2024, A.N.Abbasovla), "Dünya pedaqoji fikir tarixi" (2024, L.Qasımova, N.İmamverdiyeva ilə), "Ali məktəb pedaqogikası" (2025, L. Qasımova, N. İmamverdiyeva ilə) kitablarının müəllifidir. Bütövlükdə 23 kitabın, 200-dən artıq proqramın, metodik vəsaitin, məqalə və tezisin müəllifidir. Onun son dövrlərdə "Yeni məktəbə gedən yol və ya müasir məktəbin fəlsəfəsi", "Təhsilin məzmunu: səhvimiz haradadır?", "Dərsin müasirliyinin psixopedaqoji sirləri", "Kəşf yolu ilə öyrənmə və ya qeyri-standart dərs haqqında düşünərkən", "Ağıl necə formalaşır?", "Qabaqcıl müəllimə necə çevrilmək olar?", "Qabiliyyəti, istedadı və talantı harada itiririk?" və s. bu kimi məqalələri oxucuların geniş müzakirəsinə səbəb olmuşdur.

### Müəllimlərin müəllimi

Professor Hikmət Əbdül oğlu Əlizadə 44 ildir ki, BDU-da müəllim ixtisasları üzrə kadr hazırlayan fakültələrdə dərs deyir. Onun mühazirələri təkcə pedaqogika fənninin tədrisinə deyil, ağıl və mənəvi dəyərlər müstəvisində dinləyicilərinə həyatın, təhsilin, tərbiyənin, inkişafın mahiyyətini dərk etməyə istiqamətlənib. Bu gün elə bir təhsil müəssisəsi tapmaq olmaz ki, onun yetirmələri orada işləməsin. Bir neçə dəfə mən də müxtəlif məktəblərdə görüşlərdə olarkən, görünür onunla həmmüəllif əsərlərim olduğum üçün və ya dost olduğumuzu bildikləri üçün onu məndən soruşublar. Sonra bir böyük müəllim kimi onu elə sevə-sevə səciyyələndiriblər ki, qibtə etməmək mümkün deyil.

Son dövrlərdə onun həm də ictimai fəaliyyət dairəsi genişlənmişdir. O, Elm və Təhsil Nazirliyinin yanında İctimai Şuranın sədridir. İctimai Şura xətti ilə respublika səviyyəli tədbirlərdə fəal iştirak edir, müxtəlif təhsil müəssisələrində müəllimlərlə görüşlər keçirir, onlarla müasir dövrün təhsil konsepsiyaları kontekstində müzakirələr aparır.

Amma, bəlkə də özü də hiss etmədən, müəllim kadrları hazırlaya-hazırlaya, müəllimlərə dərs deyə-deyə "müəllimlərin müəllimi" statusuna yiyələnmişdir. Bu gün formalaşmasında Hikmət Əlizadənin əməyi olan hər bir müəllim onu qürurla öz müəllimi kimi dəyərləndirir. Bu, Əbdül müəllimin verdiyi əmanətin həm alim kimi, həm də müəllim kimi qoruyub saxladığını, ona yeni nəfəs gətirirdiyinin və ucalda bilməsinin nəticəsidir.

### Əsərlərindən seçmələr

**Dülgərin obyekti cansız olduğu halda, təlim prosesində biliyin ötürülməsi obyekti olan şagird özü də bir subyektdir. Bu prosesdə müəllimin məqsədi ilə yanaşı şagirdin də məqsədi olur. Nə qədər ki, müəllimin məqsədi ilə şagirdin məqsədi uyğun gəlmir, orada müvəffəqiyyət qazanmaq mümkün deyil. Buna görə də şagirdin məqsədinin müəllimin məqsədinə uyğun gəlməsinə (diqqətlə fikir verin: uyğun gəlməsinə, eyni olmasına yox) nail olmaq lazımdır.*

**Pedaqoji prosesdə uğur qazanılmasında müəllimin metodikası mühüm əhəmiyyət kəsb edir. Metodika müəllimin pedaqoji prosesdə təlimin məzmununu şagirdə çatdırmaq üçün istifadə olunan metodların məcmusudur.*

**Pedaqoji proses formaca öyrədənlə öyrənənin qarşılıqlı münasibətini özündə əks etdirsə də, məzmunca mürəkkəb prosesdir. Onun mürəkkəbliyi pedaqoji nəzəriyyənin bir çox suallara cavab verməsini tələb edir. Həmin suallardan bəziləri: Bu prosesin səmərəli təşkili üçün təhsil sistemində hansı idarəetmə modelindən istifadə olunmalıdır? Bu proses öyrədənlə öyrənən arasında münasibətlərə söykənir. Öyrədənlə öyrənən arasında münasibətlər necə təşkil olunmalıdır? Bu prosesdə öyrədən hansı təlim metodlarından istifadə etsə, daha səmərəli nəticələr əldə olunar? Bu prosesdə hansı texnologiyalardan, necə istifadə etmək daha məqsədəuyğun olar? və s.*

### Son söz əvəzi

**Yunan fəlsəfəsində deyilir: "insan hər şeyin ölçüsüdür. Əgər insan özünü dərk edirsə, deməli, onun hər şeyi dərk edə bilməsi mümkündür. İnsanlıq - bəşəriyyəti, insanları, yaxud da şəxsiyyətə məxsus alicənablıq, xeyirxahlıq, insanpərvərlik, mərhəmət və s. bu kimi ali keyfiyyətləri özündə cəmləşdirən məfhumdur". Hikmət Əlizadə də öz fəaliyyəti ilə alimliyin və müəllimliyin ölçüsünə çevrilə bilmişdir, o yaradıcılığı ilə şəxsiyyət keyfiyyətlərinin sərhədlərini birləşdirə bildiyi üçün böyük uğurlar əldə edə bilmişdir. Bu gün o alim və müəllim olmaqla yanaşı, həm də ailə başçısıdır: - həyat yoldaşı, övladları, nəvələri onun həyat hekayəsinin mühüm səhifələrini təşkil edir. Müəllimlik həyatının və elmin enişli-yoxuşlu yollarında inamla addımlayaraq, zirvəyə yüksəlməyi bacarmış Hikmət müəllim 70 yaşına çatmışdır. Nə gözəl!!! Arzu edirəm ki, sonrakı illəri də sağlam canla yaşasın, yazıb-yaratsın, yeni elmi kadrlar yetişdirsin, ali təhsil müəssisəsində səmərəli təlimlər aparsın!!! Əziz qardaşım Hikmət, 70 yaşın mübarək!!!**



**Akif ABBASOV,
Təhsil İnstitutunun elmi katibi, pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim**

**Dağların qoynunda, təbiətlə iç-içə, Nəsrəddin Tusi adına Şamaxı Atrofizika Rəsədxanasının ərazisində böyük bir düşərgə salınıb. Çadırlar qurulub, ali, orta ixtisas və peşə təhsili müəssisələrinin tələbə və məzunları olan 250-yə yaxın gənc bir araya gəlib. Gənclər məsuliyyəti də bölüşüblər, işləri də. Hərə öz dünyasından bir rəng qatıb təbiətin yaşılın ayrı-ayrı çalarlarında olan rənglərinə. "Azərbaycan müəllimi" rəngli görüntülərə, çoxçalarlı dünyalara, fərqli fikirlərə meydan verən, iştirakçı sayına və müddətinə görə ən böyük gənclər festivalı — "Yay Fest"də olub.**

# "Yay Fest"dən reportaj








# Təbiət qoynunda rəqəmlər necə koda çevrildi?





### "Mühəndislik və kod" həftəsində

Azərbaycan Gənclər Fondunun tərəfdaş gənclər təşkilatları ilə birlikdə iyulun 13-dən başlayaraq təşkil etdiyi "Yay Fest"in konseptual mövzusu müasir dünyanın inkişaf trayektoriyasını müəyyən edən əsas istiqamətlər — süni intellekt, rəqəmsal transformasiya və innovasiyalar üzərində qurulub. "Azərbaycan müəllimi"nin də qatıldığı, 17—21 avqust tarixlərində Gənclər Təşkilatlarının Milli Şurasının (NAYORA) təşkil etdiyi düşərgənin mövzusu "Mühəndislik və Kod"dur.

### ""Yay Fest"də keçən bu həftəni gələcək uğurlarım üçün qoyduğum sərmayə sayıram"

İlahə Ələkbərova Memarlıq və İnşaat Universitetinin IV kurs tələbəsidir: "Mən "Ekologiya mühəndisliyi" ixtisası üzrə bakalavr təhsili alıram. NAYORA-nın səhifəsində media üçün qeydiyyatı görüb iştirak etmək istədim. Müsahibəyə dəvət olundum və qəbul edildim. Mediaya çox böyük həvəsim var. Kod və mühəndislik mənə çox maraqlıdır. Magistratura təhsili üçün bu istiqamətdə bir ixtisas seçəcəyim üçün "Yay Fest"də keçən bu həftəni öz gələcək uğurlarım üçün qoyduğum sərmayə sayıram".

Düşərgədəki işi İlahənin ürəyincə olub: "Media komandası olaraq maraqlı mövzular işlədik. Bu düşərgənin bir parçası olmaqdan qürur duydum".

### ""Yay Fest"də şəbəkəmi genişləndirdim"

Pərviz Mirzəzadə Bakı Slavyan Universitetində "Jurnalistika" ixtisası üzrə təhsil alır. III kurs tələbəsi olan Pərviz "Yay Fest" barədə dostları vasitəsilə xəbər tutub: "Burada xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, gənclər və idman nazirinin müavini İndira Hacıyeva, həmçinin Prezident mükafatçıları ilə görüşdük, maraqlı söhbətlər etdik. Məşğulluq Agentliyinin rəhbər şəxsi ilə görüşümüz geniş müzakirələrə səbəb oldu. "Peşələr festivalı" adlandırdığım bir layihəm var, onu agentlik nümayəndəsi Natiq Məmmədova təqdim etdim. Karyera və məşğulluq barədə də məni maraqlandıran suallara cavab aldım".

Pərviz iştirakçısı olduğu həftənin ona qazandırdıqlarından danışarkən dostluqlarını da unutmayıb: "Mənim yaxşı kommunikasiya bacarığım var. Burada şəbəkəmi genişləndirdim, yaxşı dostlar qazandım. Maraqlı söhbətlərimiz oldu, əyləncəli axşamlar keçirdik. Seçilən xüsusi qonaq müğənnilərimiz oldu. Gəncliyin ruhuna uyğun proqramlarla çıxış etdilər".

### "Bu düşərgə gənclərin çoxunda stimul yaratdı"

Elnarə Əliyeva düşərgənin ən fəallarındandır. Hər işin qulpundan yapışır, ümumi işə töhfə qatmağa çalışır: "5 gün müddətində kod mühəndisliyi istiqamətində işlədik, layihələr hazırladıq, onları ən səmərəli şəkildə reallaşdırmağın yollarını axtardıq. Kibertəhlükəsizlik, rəqəmsallaşma, süni intellektin necə inteqrasiya olunması, hansı məsələlərdə gənclərin dəstəyinə ehtiyac olduğu, hansı ideyaların mövcudluğu ilə bağlı maraqlı müzakirələrimiz keçdi. Məncə, bu düşərgə gənclərin çoxunda stimul yaratdı. Onlar ideyalarını reallaşdırmaq üçün hara müraciət edəcəklərini, necə irəliləyəcəklərini öyrəndilər.".

Burada çox şey qazandıqlarını deyən Elnarənin fikrincə, əyləncəli gecələr gənclər üçün xüsusilə maraqlı oldu: "Ən çox xoşumuza gələn o oldu ki, gələn qonaqlar düşərgəyə ciddi yanaşırdılar. Hiss olunurdu ki, qarşımıza hazırlıqlı gəliblər".

Bəs görəsən, maraqlı, rəngarəng, gənclərin ürəyincə olan festival proqramı necə ortaya çıxıb? Bu barədə "Azərbaycan müəllimi"nə danışan Gənclər Təşkilatları Milli Şurasının sədri Rafael Hacıbəyli deyir ki, gənclər siyasəti çərçivəsində gənclərin inkişafına, maariflənməsinə, yeni bilik və bacarıqlar əldə etməsinə yönəlmiş imkanlardan biridir: "YAY FEST 2026 ümumilikdə 8 tematik həftəni əhatə edir və festival çərçivəsində 2 mindən çox gəncin iştirakı nəzərdə tutulur. Bu il festivalın əsas mövzusu süni intellekt və rəqəmsallaşmadır. Biz NAYORA olaraq festivalın 17—21 avqust tarixlərini əhatə edən 6-cı həftəsi — "Mühəndislik və Kod" düşərgəsinin təşkilində iştirak etdik. Proqramı hazırlayarkən mühəndislik və texnologiya ilə yanaşı, süni intellekt və rəqəmsallaşmanın müxtəlif istiqamətlərdə tətbiqinə də xüsusi yer ayırmağa çalışdıq".

Beş gün ərzində gənclər müxtəlif dövlət rəsmiləri və mütəxəssislərlə bir araya gəliblər: "Gənclər və idman nazirinin müavini İndira Hacıyeva ilə süni intellekt və rəqəmsallaşmanın gənclər üçün yaratdığı imkanlar, xarici işlər nazirinin müavini Yalçın Rəfiyevlə müasir beynəlxalq münasibətlər və təhlükəsizlik məsələləri, Dövlət Məşğulluq Agentliyinin Peşə hazırlığı departamentinin müdiri Namiq Məmmədovla isə peşə hazırlığı, əmək bazarının tələbləri və karyera imkanları ətrafında müzakirələr aparıldı. Proqramın maraqlı hissələrindən biri də müxtəlif illərdə Gənclər üçün Prezident Mükafatına layiq görülmüş şəxslərlə keçirilən panel müzakirəsi oldu. Panel iştirakçıları öz fəaliyyət yolları və qazandıqları təcrübələr barədə danışaraq gənclərin suallarını cavablandırdılar və tövsiyələrini bölüşdülər".

Düşərgə müddətində süni intellekt və proqramlaşdırma istiqamətində təlimlər, intellektual və praktiki fəaliyyətlər də təşkil olunub: "NAYORA-nın üzv gənclər təşkilatları da proqrama qoşularaq ideyaların reallaşdırılması, sağlam həyat tərzi, böhran vəziyyətlərinin idarə olunması, ilkin tibbi yardım və komanda işi kimi müxtəlif istiqamətlərdə fəaliyyətlər həyata keçirdilər. "YAY Fest"in proqramında maarifləndirici hissə ilə yanaşı, gənclərin sosiallaşmasına və asudə vaxtlarının səmərəli təşkilinə də xüsusi diqqət ayrıldı".

Rafael Hacıbəyli inklüzivliyə həsr olunan xüsusi axşam proqramından da danışıb: "Düşərgənin yaddaqalan hissələrindən biri də "Ümid var" İnklüziv Yaradıcılıq Birliyinin iştirakı ilə inklüzivliyə həsr olunan xüsusi axşam proqramı oldu. Proqram çərçivəsində müxtəlif inklüziv yaradıcılıq və səhnə çıxışları təqdim edildi. Ümumilikdə, "Mühəndislik və Kod" həftəsində məqsədimiz gənclərin yeni bilik və bacarıqlar əldə etməsi ilə yanaşı, yeni insanlarla tanış olması, təcrübə mübadiləsi aparması və düşərgədən yeni əlaqələr və xoş xatirələrlə ayrılması üçün mühit yaratmaq idi".

### VI Yay Fest-də VI həftə geridə qaldı, düşərgənin yeni sakinləri gəldi

"Yay Fest"də altıncı həftə də arxada qaldı. Həftə ərzində gənclər proqramlaşdırma, süni intellekt, mühəndislik düşüncəsi və rəqəmsal texnologiyalarla bağlı yeni biliklər öyrənməklə yanaşı, panel müzakirələri, praktiki sessiyalar və interaktiv fəaliyyətlər vasitəsilə öz ideyalarını sınamaq və qazandıqları bilikləri praktik şəkildə tətbiq etmək imkanı əldə etdilər.

"Yay Fest" daha 2 həftə, yəni sentyabrın 4-dək davam edəcək. Bu da o deməkdir ki, çadırların sakinləri, mövzular, qonaqlar dəyişəcək, məqsəd də, nəticə də dəyişməz qalacaq.

Artıq altıncı dəfə təşkil olunan "Yay Fest" ötən illər ərzində on mindən çox gənci bir araya gətirərək onların intellektual, şəxsi və peşəkar inkişafına mühüm töhfələr verib, yeni dostluqların və innovativ təşəbbüslərin stimullaşdığı gənclər platforması kimi yadda qalıb. Bu dəfə də belə olacaq.

**Ruhiyyə DAŞSALAHLI**


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** Mob.: (010) 253-30-86; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 500 **Sifariş:** 1115

**Məsul növbətçi:** S.Kərimova


# Etibarsız sayılır

**Salyan rayon** Qızılağac kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Yolçiyev Fuad Tahir oğluna verilmiş B-029102 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Məmmədli kənd tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Quliyeva Həmidə Şahin qızına verilmiş B-059352 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 8 nömrəli Texniki və Humanitar fənləri təmayüllü məktəb-liseyi 1997-ci ildə bitirmiş Əliyeva (Ağayeva) Nailə Tofiq qızına verilmiş 199024 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 49 nömrəli "İntellekt" məktəb-liseyi 2023-cü ildə bitirmiş Zeynalov Fuad Aris oğluna verilmiş E-569483 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 5 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Quliyeva (İsayeva) Fəhirə Nizami qızına verilmiş B-223157 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Tapqaraqoyunlu kənd tam orta ümumtəhsil məktəbi 1994-cü ildə bitirmiş Quliyev Elmar Yaqub oğluna verilmiş 000318 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2025-ci ildə bitirmiş Cabbarova Günay Ariz qızına verilmiş E-849026 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2025-ci ildə Hünbətova Sevil Xanlar qızına verilmiş C-276456 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Nizami kənd tam orta ümumtəhsil məktəbi 2003-cü ildə bitirmiş Hacıyeva (Müşfiqli) Gülnurə Tamerlan qızına verilmiş B-094651 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara Pedaqoji Kolleci** tərəfindən 2018-ci ildə Mirzəzadə Şəbnur Şahüseyn qızına verilmiş AA-117354 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı rayon** Kürdmaşı kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Mehdiyev Oktay Yaqub oğluna verilmiş BN-353926 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2002-ci ildə Salmanov İlkin Bəkir oğluna verilmiş A-105942 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Həmyəli kənd ümumi orta ümumtəhsil məktəbin IX sinfini 2023-cü ildə bitirmiş Heydərova Selcan Teyyub qızına verilmiş C-801881 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Şirinova Sənubər Mail qızına verilmiş A-750099 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Rusiya Federasiyası Maliyyə və Hüquq İnstitutunu** (Mahaçqala) 2002-ci ildə bitirmiş Şıxəliyev Elçin Ağaəhməd oğluna 2015-ci ildə verilmiş 130505, 0325238 nömrəli bakalavr diplomu və 130505,0605496 nömrəli diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2009-cu ildə Ağalarov Babək Eldar oğluna verilmiş B-162155 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Vladimirovka kənd tam orta məktəbi 2001-ci ildə bitirmiş Əhmədov Elşən Həsrət oğluna verilmiş A-574256 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 219 nömrəli evdə təhsil tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Qurbanov Murad Emil oğluna verilmiş E-263089 nömrəli tam orta tıəhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Qida Sənayesi Kolleci** tərəfindən 2015-ci ildə Əsədova Nurlanə Zöhrab qızına verilmiş AA-062957 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 125 nömrəli tam orta ümumtəhsil məktəbi 1994-cü ildə bitirmiş Məmmədova Vüsalə Məcid qızına verilmiş A-019936 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 19 nömrəli tam orta ümuməhsil məktəbi 2024-cü ildə bitirmiş Nəcəfov İbrahim Rauf oğluna verilmiş E-749950 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Hüseynova (Abdinova) Ramilə Elman qızına verilmiş A-098490 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 57 nömrəli tam orta ümumtəhsil məktəbi 2010-cu ildə bitirmiş Əliyev Sultan Nüsrət oğluna verilmiş A-169547 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız satılır.

**Qubadlı rayon** Qaralar kənd tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş Namazova Fidan Vüqar qızına verilmiş E-723078 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Tağıyev Səyad Mehrab oğluna verilmiş E-627453 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 144 nömrəli tam orta məktəbin VIII sinfini 1994-cü ildə bitirmiş Məmmədova (Piriyeva) Aynur Qədir qızına verilmiş ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 166 nömrəli məktəb-liseyin IX sinfini 2009-cu ildə bitirmiş Rəhmanzadə Suraxanım Qədir qızına verilmiş A-767425 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 68 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Kuznetsov Aleksandr Oleq oğluna verilmiş E-278384 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2021-ci ildə Məmmədov Murad Eldar oğluna verilmiş C-106230 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Təhsil İnstitutunun direktor müavini dosent Faiq Şahbazlı ailəsi ilə birlikdə filologiya üzrə fəlsəfə doktoru Şakir Cəfərova atası

**DAYANDUR CƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sarvan İbrahimov və "Azərbaycan müəllimi" qəzetinin kollektivi Şakir Cəfərova atası

**DAYANDUR CƏFƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.